*Azərbaycan Respublikası*
*Maliyyə Nazirliyinin*
*Dövlət Sığorta Nəzarəti Xidmətinin*
*rəisi*

QAYDALAR ÜÇÜN

*N.C.Xəlilov*

*«30» aprel 2012-ci il*

*Çartis Azərbaycan Sığorta Şirkəti Açıq Səhmdar*
*Cəmiyyətinin İdarə Heyətin Sədri*

*V.M.Mamiyev*

*«05» dekabr 2011-ci il*

# KONTRAKTORUN ÇIRKLƏNMƏ ILƏ BAĞLI MƏSULİYYƏT SIĞORTASI

## QAYDALARI

Bakı - 2011

MÜNDƏRİCAT


| | |
|---|---|
| **MÜNDƏRİCAT** | **2** |
| **SIĞORTA SİNFİ** | **3** |
| **ÜMUMİ ANLAYIŞLAR** | **3** |
| **ÜMUMİ MÜDDƏALAR** | **4** |
| **Maddə 1. SIĞORTANIN ƏHATƏ ETDİYİ ƏRAZİ** | **4** |
| **Maddə 2. SIĞORTAÇININ HÜQUQ VƏ VƏZİFƏLƏRİ** | **4** |
| **Maddə 3. SIĞORTALININ HÜQUQ VƏ VƏZİFƏLƏRİ** | **5** |
| **Maddə 4. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ** | **6** |
| **Maddə 5. SIĞORTA MƏBLƏĞİ** | **6** |
| **Maddə 6. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI, ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ, XİTAM VERİLMƏSİ** | **6** |
| **Maddə 7. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏNİN NƏTİCƏLƏRİ** | **8** |
| **Maddə 8. ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ** | **8** |
| **Maddə 9. SIĞORTA ÖDƏNİŞİNİN HESABLANMASI QAYDASI** | **8** |
| **Maddə 10. SIĞORTA ÖDƏNİŞİNİN HƏYATA KEÇİRİLMƏSİ QAYDASI VƏ ŞƏRTLƏRİ, SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR** | **8** |
| **Maddə 11. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI** | **9** |
| **Maddə 12. SUBROQASİYA HÜQUQU** | **10** |
| **Maddə 13. SIĞORTA MÜQAVİLƏSİNİN QAYDALAR ÜZƏRİNDƏ ÜSTÜNLÜYÜ** | **10** |
| **Maddə 14. XÜSUSİ ŞƏRTLƏR** | **10** |
| **Maddə 15. İŞ SİRLƏRİNİN GİZLİ SAXLANILMASI** | **10** |
| **Maddə 16. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI** | **10** |
| **Maddə 17. SANKSİYALARA DAİR MADDƏ** | **10** |
| **SIĞORTA MÜQAVILƏSI** | **11** |
| **İSTISNALAR** | **12** |
| **TƏRIFLƏR** | **14** |
| **İDDIA MÜDDƏALARI** | **16** |
| **MƏSULIYYƏT LIMITI VƏ AZADOLMA** | **17** |
| **UZADILMIŞ İDDIA MÜDDƏTI** | **18** |
| **ƏRAZI** | **19** |
| **ŞƏRTLƏR** | **19** |
| **HÜQUQI NORMALARIN VƏ MƏHKƏMƏNIN SEÇILMƏSI** | **20** |
| **MÜLKİ MƏSULİYYƏT SIĞORTASI ÜZRƏ TARİF DƏRƏCƏLƏRİNİN HESABLANMASI** | **21** |

**SIĞORTA SİNFİ**

Bu sığorta qaydaları ilə müəyyən olunan sığorta növü ümumi mülki məsuliyyət sığortası sinfinə aiddir.

**ÜMUMİ ANLAYIŞLAR**

**Sığorta müqaviləsi** - sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşmadır.

**Sığortaçı** - sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfidir.

**Sığortalı** - sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfidir.

**Siğortalı** - əmlak mənafeləri sığorta müqaviləsi əsasında sığortalanan şəxsdir.

**Faydalanan şəxs** - sığorta qanunvericiliyinə və ya sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxsdir. Sığorta müqaviləsində faydalanan şəxs qismində başqa şəxs nəzərdə tutulmamışdırsa, sığortalı və (və ya) Siğortalı faydalanan şəxs sayılır.

**Sığorta obyekti** - sığortalının, yaxud sığorta olunanın qanunazidd olmayan hər hansı əmlak mənafeyidir.

**Sığorta predmeti** - sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs, əmlak və ya haldır.

**Qismən sığorta** - müqavilədə müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında) sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir.

**Azadolma məbləği** - sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir. Azadolma məbləği hər bir halda sığorta müqaviləsinə uyğun olaraq müəyyən edilən sığorta ödənişi məbləğinə tətbiq olunur. Sığorta müqavilələrində şərtli və ya şərtsiz azadolma məbləği müəyyən oluna bilər.

- **Şərtli azadolma** - məbləğinin nəzərdə tutulması halında, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən çox olduqda zərər məbləğindən azadolma məbləği çıxılmır.
- **Şərtsiz azadolma** - məbləği nəzərdə tutulduqda həmin məbləğ hər bir halda zərər məbləğindən çıxılır.

**Sığorta haqqı** risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir.

**Sığorta məbləği** - Sığorta məbləği sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin son həddidir.

## ÜMUMİ MÜDDƏALAR

Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ-hüquqi aktlara uyğun olaraq hazırlanmışdır.

## 1. SIĞORTANIN ƏHATƏ ETDİYİ ƏRAZİ

Tərəflərin başqa cür razılaşdığı və belə razılaşmanın Sığorta müqaviləsində təsbit olunduğu hallar istisna olmaqla, sığorta Azərbaycan Respublikasının ərazisini əhatə edir.

## TƏRƏFLƏRİN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ

**2. Sığortaçının hüquq və vəzifələri:**

**2.1.** Risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalıdan sığorta haqqını tələb edir.

**2.2.** Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə sığortaçı onun ödənilməsi üçün ilk hissəsi ilə bağlı sığorta müqaviləsi bağlandığı gündən, digər hissələrlə bağlı isə ödəmə tarixindən 1 aydan gec olmamaq şərti ilə yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.

**2.3.** Sığortaçı sığortalanmış risklər üzrə müqavilədə müəyyən edilmiş sığorta məbləği həddində öhdəlik daşıyır.

**2.4.** Sığorta məbləğlərini, sığorta riskləri, sığorta risklərindən istisnaları və (və ya) sığorta təminatında məhdudiyyətləri müəyyən edir.

**2.5.** Sığortalıdan riskinin dərəcəsini və yaxud sığorta hadisəsi ilə bağlı şəraiti müəyyən etmək üçün mühüm əhəmiyyət daşıyan hallar və ya sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində bu hallarda baş verən dəyişikliklər barədə bildiyi və ya bilməli olduğu məlumatları verməsini tələb edir;

**2.6.** Bu qaydalarla nəzərdə tutulan şərtlərin sığortalı tərəfindən yerinə yetirilməsini tələb edir;

**2.7.** Sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməməsini tələb edir;

**2.8.** Sığortalının sığorta hadisəsi yaranmasına yönəldilən qərəzli hərəkətləri və ya sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayətlər törətməməsini tələb edir;

**2.9.** Sığortalının sığortalanmış əmlakın xilas edilməsi (qorunub saxlanması) və ya ona dəymiş zərərin azaldılması üçün lazımi və mümkün tədbirləri görməsini tələb edir;

**2.10.** Sığorta predmeti və hadisəsi barədə sığortalıdan aydın və düzgün məlumat verməsini tələb edir, sığortalının bildirdiyi məlumatın yanlış və ya yarımçıq olması məlum olarsa:

**2.10.1.** Sığortalı bu hərəkəti qəsdən etmişdirsə, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən sığorta müqaviləsini ləğv edə bilər və sığorta hadisəsi baş verərsə, ödəniş verməkdən imtina edə bilər.

**2.10.2.** Sığortalı hərəkətinin qəsdən etmədiyi müəyyən olarsa, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən sığorta müqaviləsini ləğv edə bilər və ya həmçinin sığorta müqaviləsinin şərtlərini dəyişdirə və ya əlavə sığorta haqqı almaqla sığorta müqaviləsini qüvvədə saxlaya bilər.

**2.11.** Bu qaydalarda nəzərdə tutulan şərtlərin sığortalı tərəfindən yerinə yetirilməməsi nəticəsində dəyən zərərin əvəzinin ödənilməsindən imtina edir;

**2.12.** Sığorta hadisələri təsiri nəticəsində sığortalının əmlak mənafelərinə dəyən zərərin əvəzinin tam və ya qismən ödənilməsi miqdarında sığorta ödənişini həyata keçirir.

**2.13.** Sığortaçı sığorta müqaviləsi bağlanarkən sığortalıdan sığorta riskinin müəyyən olunması və sığorta haqqının hesablanması üçün zəruri və ona məlum olan bütün halları və məlumatları tələb edir və əlavə zəruri məlumatların siyahısını tərtib edərək, yazılı müraciət formasında sığortalıya göndərir.

**2.14.** Sığorta hadisəsinin baş verməsi barədə sığortaçı hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.

**2.15.** Sığortaçı sığorta ödənişini sığorta məbləği həddində həyata keçirir.

**2.16.** Sığortaçı sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda sığorta müqaviləsi ilə müəyyən olunmuş qaydada sığorta ödənişini verir.

**2.17.** Sığorta hadisəsi kimi tanına bilən hadisə və ya hal baş verdiyi anda sığorta marağı mövcud olmadıqda həmin hadisə və ya hal sığorta hadisəsi hesab edilmir və sığortaçı sığorta ödənişi üzrə vəzifələrinin icrasından azad edilir.

**2.18.** Sığortaçı sığortalının aşkar yazılı təkidi ilə seçilən təkrarsığortaçının öz öhdəliklərini icra edə bilmədiyi həddə müvafiq sığorta müqaviləsi üzrə vəzifəsini yerinə yetirməkdən azad edilir.

**2.19.** Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında) sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir.

**2.20.** Sığortalının bu sığorta qaydaları ilə razı olduğunu təsdiq etməsi şərti ilə sığortalıya sığorta müqaviləsi verir.

**2.21.** Sığorta müqaviləsi itdikdə və ya məhv olduqda sığortalı və ya Siğortalı onun dublikatını sığortaçıdan şifahi və ya yazılı şəkildə tələb edə bilər. Bu tələbin yazılı şəkildə daxil olduğu tarixdən etibarən 3 iş günü müddətində sığortaçı sığortalını və ya sığorta olunanı müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, öz hesabına müvafiq sığorta müqaviləsinin dublikatı ilə təmin edir.

**2.22.**Sığortaçı sığorta predmeti barəsində sığortalı tərəfindən aydın və düzgün məlumat verilməsini tələb edir. Bu məlumatlarla bağlı sığortalı tərəfindən qəsdən yanlış məlumat verilərsə sığortaçı sığorta predmetinin sığorta müqaviləsində göstərilmiş dəyərini qəbul etməyə bilər.
**2.23.**Sığorta müqaviləsi bağlanarkən müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə sığortalının tanış olmasını təmin edir.
**2.24.**Sığortalını sığorta şərtləri ilə, yaxud könüllü sığorta müqaviləsinin əsaslandığı sığorta qaydaları ilə tanış edir.
**2.25.**Sığorta müqaviləsi bağlayarkən sığortaçı sığortalanan predmetə baxış keçirə, fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla onu qiymətləndirə, lazım gəldikdə isə onun həqiqi dəyərini müəyyən etmək məqsədilə sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla müstəqil ekspert təyin edə bilər.
**2.26.**Sığortaçı sığorta müqaviləsi üzrə sığortalanan əmlakı, həmçinin sığorta risklərini bilavasitə özü və ya sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs, yaxud müstəqil ekspert vasitəsilə qiymətləndirə bilər. Bu halda müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.
**2.27.**Sığortaçı 6.8-ci bəndində qeyd olunan hallar mövcud olarsa sığorta müqaviləsinə vaxtından əvvəl xitam verir.
**2.28.**Sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda və müqaviləyə xitam verilməsində maraqlı olan sığortaçı digər tərəfi bu barədə xəbərdar edir və ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərir.
**2.29.**Sığorta hadisəsinin baş verməsi barədə sığortaçıya məlumat vermiş sığortalı və ya Siğortalı şəxs, həmçinin faydalanan şəxs hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına həmin hadisə barədə xəbər verməmişdirsə sığortaçı qeyd olunan orqanları bu hadisə barədə dərhal məlumatlandırır.
**2.30.**Sığortaçı (və ya təyin edilmiş müstəqil ekspert, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxs) sığorta hadisəsinin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədlərin və məlumatların alınması ilə bağlı səlahiyyətli dövlət orqanlarına yazılı sorğunu sığortalıya verərək müvafiq sənədlərin təmin edilməsini tələb edir.
**2.31.**Bu qaydaların 15-ci maddəsində müəyyən edilmiş subroqasiya hüququndan istifadə edir.
**2.32.**Qanunvericiliyə və bu qaydalara uyğun digər hüquq və vəzifələrini həyata keçirir.

**3. Sığortalının hüquq və vəzifələri:**

**3.1.** Bu qaydalarla nəzərdə tutulan şərtlərin sığortaçı tərəfindən yerinə yetirilməsini tələb edir;
**3.2.** Sığorta hadisəsinin təsiri nəticəsində sığortalının əmlak mənafelərinə dəyən zərərin əvəzinin tam və ya qismən ödənilməsi miqdarında sığorta ödənişini tələb edir;
**3.3.** Sığorta müqaviləsində qeyd olunan sığorta haqqını ödəyir;
**3.4.** Sığorta riskləri barədə sığortaçıya məlumat verir;
**3.5.** Riskin dərəcəsini və yaxud sığorta hadisəsi ilə bağlı şəraiti müəyyən etmək üçün mühüm əhəmiyyət daşıyan hallar və ya sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində bu hallarda baş verən dəyişikliklər barədə bildiyi və ya bilməli olduğu məlumatları sığortaçıya bildirir;
**3.6.** Sığorta predmetinin və hadisəsinin araşdırması üçün sığortaçıya müvafiq şəraiti yaradır:
**3.6.1.** Sığortalanan əmlaka baxış keçirmək;
**3.6.2.** Sığortalanan əmlakın olduğu yerləri və yerin yaxınlığındakı binaya (qurğu və ya evin) baxış keçirmək;
**3.6.3.** Sığortalanan əmlakın real dəyərinin müəyyənləşdirilməsi məqsədi ilə keçirilən ekspertizada iştirak etmək.
**3.7.** Sığortalanmış əmlakın xilas edilməsi (qorunub saxlanması) və ya ona dəymiş zərərin azaldılması üçün lazımi və mümkün tədbirləri görür;
**3.8.** Sığorta predmeti və hadisəsi barədə sığortaçıya düzgün və aydın məlumat verir;
**3.9.** Bu qaydalarda nəzərdə tutulan şərtləri yerinə yetirir, əks təqdirdə əmlak mənafelərinə dəyən zərərin əvəzinin sığortaçı tərəfindən tam və ya qismən ödənilməsini tələb etmə hüququnu itirir.
**3.10.**Sığorta müqaviləsi bağlanarkən sığortalı sığorta riskinin müəyyən olunması və sığorta haqqının hesablanması üçün zəruri və ona məlum olan bütün halları və məlumatı sığortaçıya bildirir.
**3.11.**Sığorta müqaviləsinə bu qaydaların 6.9-ci bəndinin tələblərinə əsasən sığortalı tərəfindən vaxtından əvvəl xitam verilə bilər. Bu halda:
**3.11.1.** Sığortalı, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçıdan həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarının ona qaytarmasını tələb edir, əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçıdan sığorta haqlarını bütünlüklə sığortalıya qaytarılmasını tələb edir.
**3.11.2.** Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması bu qaydaların bu qaydaların 10-cu maddəsinin tələblərinə əsasən həyata keçirilir.
**3.12.** Sığorta hadisəsinin baş verməsi barədə hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda, qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verir.
**3.13.**Sığorta məbləğinin azalmış hissəsinə uyğun olaraq, əlavə sığorta haqqı ödənilməklə sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləğini bərpa edilə bilər.
**3.14.**Sığortalı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən sığorta riskinin artması ilə bağlı bütün hallar barədə sığortaçıya məlumat verir.

**3.15.**Sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda və müqaviləyə xitam verilməsində maraqlı olan sığortalı digər tərəfi bu barədə xəbərdar edir və ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərir.

**3.16.**Qanunvericiliyə və bu qaydalara uyğun digər hüquq və vəzifələrini həyata keçirir.

**3.17.**İtki, ziyan və ya zərərin qarşısını alma öhdəliyi

Sığortalı

(a) sığortalanan Əmlakın saz vəziyyətdə saxlanılması və itki, ziyan və ya zərərin qarşısını almaq üçün öz hesabına bütün mümkün ehtiyat tədbirlərinin görülməsini təmin etməlidir.

(b) işçilərin seçməsində və onlara nəzarətdə ehtiyat göstərməlidir.

(c) hər bir hakimiyyət orqanları tərəfindən müəyyən edilmiş və qoyulmuş öhdəlikləri icra etməlidir.

Mülkləri nəzarət etmək üçün Sığortaçının nümayəndəsinin Mülklərə hər zaman daxil olma imkanı olmalıdır.

## 4. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ

**4.1.** Sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya Siğortalı şəxs, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda, qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir. Sığorta müqaviləsində məlumat verməyin müddəti və yaxud üsulu göstərilmişdirsə, o, müəyyən olunmuş müddətdə və həmin üsulla həyata keçirilməlidir.

**4.2.** Sığorta hadisəsinin baş verməsi barədə sığortaçıya məlumat vermiş sığortalı və ya Siğortalı şəxs, həmçinin faydalanan şəxs bu qaydaların 7.1-ci bəndi ilə nəzərdə tutulmuş səlahiyyətli dövlət orqanlarına həmin hadisə barədə xəbər verməmişdirsə, sığortaçı qeyd olunan orqanları bu hadisə barədə dərhal məlumatlandırmalıdır.

**4.3.** Sığortalı baş verən hadisə barəsində səlahiyyətli dövlət orqanlarına məlumat verməyə və qanunvericiliklə ona aid edilmiş bütün öhdəlikləri yerinə yetirməyə borcludur.

**4.4.** Sığorta hadisəsi zamanı sığortalı mümkün zərərin qarşısını almaq və miqdarını azaltmaq üçün bütün ağlabatan və mümkün tədbirləri görməlidir.

**4.5.** Belə tədbirlər həyata keçirilərkən sığortalı sığortaçıdan aldığı təlimatları yerinə yetirməlidir.

**4.6.** Sığortaçı sığorta hadisəsi və onun nəticələri ilə əlaqədar sığortalının bütün hərəkətləri üzərində nəzarət etmək və sığorta ödənişinin həyata keçirilməsinə təsir edə bilən bütün məsələlər haqqında qərar qəbul etmək imkanına malik olmalıdır.

**4.7.** Sığortalı sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığorta predmetini sığortaçı baxış keçirənə qədər sığorta hadisəsindən sonra düşdüyü vəziyyətdə saxlamağa borcludur.

**4.8.** Zərər görmüş əmlak təmir etdiriləcəkdirsə təmir yeri təmir başlanana qədər sığortaçı ilə razılaşdırılmalıdır.

**4.9.** Sığortalı sığorta hadisəsinə aid bütün sənədləri və məlumatı sığortaçıya təqdim etmək, həmçinin hadisənin digər iştirakçılarının və sığorta hadisəsi ilə bağlı məsələlərə baxan səlahiyyətli dövlət orqanlarının bütün hərəkətləri barədə təxirə salınmadan məlumat vermək öhdəliyi daşıyır.

**4.10.**Sığortalı sığortaçının ilkin razılığı olmadan onun məsuliyyətinin tanınmasına yönəlmiş hər hansı bir hərəkət etməyə, saziş imzalamağa və ya vəd verməyə haqlı deyildir.

**4.11.**Sığorta hadisəsi ilə bağlı bütün rəsmi və qeyri-rəsmi təhqiqatlarda sığortaçı öz hesabına sığortalının maraqlarını təmsil və müdafiə etməyə haqlıdır.

**4.12.**Sığorta hadisəsi faktının mövcudluğunu və onun səbəb olduğu zərərin ölçüsünü sübut etmək sığortalının vəzifəsidir.

**4.13.**Sığorta hadisəsi faktının və şəraitinin, eyni zamanda zərərin miqdarının sübut edilməsi üçün sığortalı malik olduğu və həmçinin qanunvericiliyə və adi təcrübəyə müvafiq olaraq əldə etməli bütün sənədləri sığortaçıya təqdim etməyə borcludur.

## 5. SIĞORTA MƏBLƏĞİ

Sığorta məbləği sığortalanmış risklər üzrə sığortaçının sığorta müqaviləsi ilə müəyyənləşdirilmiş öhdəliyinin son həddidir.

**5.1.** Bu qaydalara əsasən sığorta məbləği sığorta predmetinin sığorta müqaviləsi bağlandığı andakı həqiqi dəyərindən - sığorta dəyərindən çox olduğu halda (ikili və ya çoxqat sığorta halında), həmin müqavilə sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsində etibarsızdır.

**5.2.** Sığorta məbləğinin hər bir sığorta predmeti və ya onun hissəsinə münasibətdə ayrı-ayrı risklər üzrə miqdarı sığorta müqaviləsində qeyd olunur.

## 6. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANILMASI, ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ, XİTAM VERİLMƏSİ

**6.1.** Sığorta müqaviləsi sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşmadır.

**6.2.** Sığorta müqaviləsi tərəflərin bu qaydalar əsasında yazılı formada tərtib etməsi, qarşılıqlı imzalaması və ya sığortalının bu qaydalar ilə razı olduğunu təsdiq etməsi şərti ilə sığortaçı tərəfindən sığortalıya sığorta müqaviləsinin verilməsi yolu ilə bağlanır.

**6.3.** Sığorta müqaviləsinə ediləcək əlavə və dəyişikliklər qanunvericiliyin tələblərinə uyğun olaraq tərəflərin qarşılıqlı razılaşması yolu ilə həyata keçirilir.

**6.4.** Sığorta müqaviləsi müəyyən müddət üçün bağlanılır.

**6.5.** Sığorta yalnız müqavilənin (şəhadətnamənin) qüvvədə olduğu müddət ərzində baş verən sığorta hadisələrinə təminat verir.

**6.6.** Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta təminatının müddəti sığorta müqaviləsinin bağlandığı gün saat iyirmi dörddən başlanır və sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat iyirmi dörddə başa çatır.

**6.7.** Azərbaycan Respublikasının qanunvericiliyində əqdlərin etibarsızlığı ilə bağlı ümumi əsaslarla və aşağıdakı hallarda sığorta müqaviləsi bağlandığı andan etibarsız sayılır:

**6.8.** Sığorta müqaviləsi sığortaçının və ya sığortalının adından müqavilə bağlamağa ixtiyarı olmayan şəxslərlə bağlandıqda;

**6.8.1.** sığorta fəaliyyəti ilə məşğul olmaq hüququ olmayan və ya müvafiq sığorta növünü aparmağa icazəsi olmayan şəxs sığortaçı qismində müvafiq sığorta müqaviləsini bağladıqda (bu halda ödənilmiş sığorta haqları tam həcmdə sığortalıya qaytarılır);

**6.8.2.** Sığortalı sığorta müqaviləsi bağlayarkən istənilən şəxsi faydalanan şəxs kimi təyin etmək, habelə sığorta hadisəsi baş verənədək sığortaçının və həmin şəxsin razılığı ilə onu dəyişdirmək hüququna malikdir.

**6.9.** Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

**6.9.1.** Müqavilənin qüvvədə olduğu müddət bitdikdə;

**6.9.2.** Sığortaçı sığortalı qarşısında öz öhdəliklərini yerinə yetirdikdə;

**6.9.3.** Sığortalı sığorta haqqını müqavilədə müəyyən edilən qaydada ödəmədikdə;

**6.9.4.** Məhkəmə sığorta müqaviləsinin etibarsız olduğu barədə qərar verdikdə;

**6.9.5.** Sığorta predmeti artıq mövcud olmadıqda;

**6.9.6.** Aşağıdakı hallar istisna olmaqla, sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxs ləğv olunduqda:

**6.9.6.1.** sığorta müqaviləsini bağlamış sığortalı sığorta müqaviləsi bağlayarkən sığortalanmış əmlakı qəbul edəcək hər hansı şəxsi təyin etmiş olduğu, habelə sığorta hadisəsi baş verənədək sığortaçının razılığı ilə onu dəyişdirmiş olduğu hallarda sığortalı fiziki şəxs vəfat edərsə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri mülki qanunvericiliklə müəyyən olunmuş vərəsəlik qaydasında sığortalanmış əmlakı qəbul edən şəxsə keçir;

**6.9.6.2.** qanunvericilikdə və ya müqavilədə başqa şərtlər müəyyən edilməmişdirsə, sığortalının hüquq və vəzifələri sığorta predmeti olan miras əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə həm onun özünün, həm də sığortaçının müqavilədə rəsmiləşdirilən razılığı ilə keçir;

**6.9.6.3.** başqa şəxsin xeyrinə həyat sığortası müqaviləsi bağlamış sığortalı vəfat etdikdə onun hüquq və vəzifələri xeyrinə sığorta müqaviləsi bağlanmış şəxsə təqdim edildikdən sonra ona özünün yazılı razılığı ilə keçir;

**6.9.6.4.** sığortalı olan hüquqi şəxs sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə yenidən təşkil edildikdə onun həmin müqavilə üzrə hüquq və vəzifələri qanunvericiliyə uyğun olaraq müvafiq hüquq varisinə keçir.

**6.9.7.** Sığorta müqaviləsi üzrə sığortalı olmayan Siğortalı vəfat etdikdə sığortalının onun başqası ilə əvəz olunması təklifinə sığortaçı etiraz etdikdə;

**6.9.8.** Sığorta qanunvericiliyində, yaxud sığorta müqaviləsində digər hal nəzərdə tutulmamışdırsa, sığortalanmış əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etdikdə; əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etmədikdə əlavə sığorta haqqı ödənilmədən sığorta müqaviləsi üzrə sığortalı dəyişdirilə bilər;

**6.9.9.** Sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

**6.9.10.** Sığorta marağı artıq mövcud olmadıqda;

**6.9.11.** Sığortalı sığorta haqqını qanunvericilikdə və sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

**6.9.12.** Azərbaycan Respublikasının Qanunvericiliyi və bu qaydalarla nəzərdə tutulmuş digər hallarda.

## 7. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏNİN NƏTİCƏLƏRİ

**7.1.** Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır.

**7.2.** Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərcləri çıxılmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır.

**7.3.** Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır.

**7.4.** Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması bu qaydaların 7.1-ci və 7.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

**7.5.** Sığorta müqaviləsinə bu qaydalarda və ya qanunvericiliklə müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu maddənin 7.3-cü və 7.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

## 8. ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**8.1.** Bir sığorta hadisəsi üzrə dəyən zərərin və (və ya) yaranan itkilərin əvəzinin ödənilməsi üçün iki və ya daha çox sığorta müqaviləsi ilə bir və ya bir neçə sığortaçının öhdəlikləri yarandıqda icbari sığorta müqavilələri üzrə sığorta ödənişləri verilir. Bu zaman könüllü sığorta müqaviləsi bağlamış sığortaçı sığortalı (Siğortalı və ya faydalanan şəxs) qarşısındakı öhdəliklərini öz istəyi ilə icbari sığorta müqaviləsi bağlamış sığortaçıdan əvvəl yerinə yetirə bilər.

**8.2.** Sığorta müqaviləsi üzrə sığortalı, Siğortalı və ya üçüncü şəxs aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidir:

**8.1.1.** Zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;

**8.1.2.** sığortaçı sığorta hadisəsi barədə bu qaydalarla nəzərdə tutulmuş şəkildə məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;

**8.1.3.** digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.

## 9. SIĞORTA ÖDƏNİŞİNİN HESABLANMASI QAYDASI

**9.1.** Sığortalanmış əmlaka vurulan zərərlərin həcmi müəyyən olunduqdan sonra sığorta ödənişinin hesablanması aşağıdakı üsullarla və ardıcıllıqla həyata keçirilir:

**9.1.1.** Qismən sığorta zamanı - sığorta məbləğinin sığorta dəyərinə olan nisbəti əsasında vurulmuş zərərlərə təminat verilir;

**9.1.2.** Sığorta müqaviləsində azadolma nəzərdə tutulduqda - azadolma məbləği çıxılmaqla zərərlərə təminat verilir;

**9.2.** Sığorta müqaviləsi üzrə sığorta ödənişlərinin ümumi miqdarı sığorta məbləğini aşa bilməz.

## 10. SIĞORTA ÖDƏNİŞİNİN HƏYATA KEÇİRİLMƏSİ QAYDASI VƏ ŞƏRTLƏRİ, SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR

Sığorta ödənişi sığorta hadisəsi baş verdikdə qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyasıdır.

**10.1.** Sığorta ödənişi aşağıdakılara əsasən həyata keçirilir:

**10.1.1.** sığorta hadisəsi baş verdikdə, sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə sığortaçıya ünvanladığı sığorta tələbi;

**10.1.2.** sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı qanunvericiliyə uyğun olaraq, hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd;

**10.1.3.** qanunvericilikdə və müvafiq sığorta qaydalarında nəzərdə tutulan, sığorta ödənişinin verilməsi üçün tələb olunan digər sənədlər.

**10.2.** Sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarını bu qaydaların 13.1-ci bəndində göstərilən sənədlərin və ekspert rəyinin əsasında sığorta müqaviləsi üzrə sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin, yaxud onların nümayəndəsinin təqdim etdiyi sığorta tələbi əsasında sığortaçı müəyyən edir. Bu zaman sığortaçı dəymiş zərəri müxtəlif üsullarla, o cümlədən zərər dəymiş predmetin və ya hadisə yerinin fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla, bilavasitə özü və ya sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs vasitəsilə qiymətləndirə bilər.

**10.3.** Sığorta hadisəsi nəticəsində dəyən zərərin sığortaçı tərəfindən qiymətləndirilməsi, habelə miqdarı barədə tərəflər arasında razılıq əldə edilmədikdə zərərin miqdarının qiymətləndirilməsi sığorta qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, təyin olunan müstəqil ekspert və ya sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər tərəfindən aparılır və bu zaman sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.

**10.4.** Sığortaçı sığorta hadisəsi ilə əlaqədar bütün sənədləri aldıqdan sonra 30 təqvim günü ərzində sığorta ödənişini verir və ya yazılı şəkildə əsaslandırmaqla ödənişi verməkdən imtina edir.

**10.5.** Zərərin miqdarı barədə tərəflər arasında razılıq əldə edildikdən sonra sığorta hadisəsi üzrə sığorta ödənişi sığortaçının seçimi əsasında aşağıdakı formalarda həyata keçirilir:

**10.5.1.** zərər məbləğinin pul şəklində sığortalıya (sığorta olunana) və ya faydalanan şəxsə ödənilməsi;

**10.5.2.** sığorta hadisəsi nəticəsində dəyən zərərin aradan qaldırılması üçün sığortalıya (sığorta olunana və ya faydalanan şəxsə) göstərilən xidmətlərin və ya satılan əşyaların dəyərinin xidmət göstərənə və ya satıcıya ödənilməsi;

**10.5.3.** sığorta müqaviləsində nəzərdə tutularsa, həmin müqavilədə müəyyən edilən şərtlər əsasında sığorta predmeti olan əmlakın dəyişdirilməsi.

**10.6.** Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.

**10.7.** Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği həmin müqavilə üzrə verilmiş sığorta ödənişi həcmində azalmış hesab olunur, bu halda sığorta məbləğinin azalmış hissəsinə uyğun olaraq, əlavə sığorta haqqı ödənilməklə sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği bərpa edilə bilər. Sığorta qanunvericiliyində başqa hal nəzərdə tutulmamışdırsa, bu zaman sığorta müqaviləsinə sığortaçı sığorta məbləğinin azalması ilə bağlı dəyişiklik edə bilər.

**10.8.** Əmlakın sığortasında və əmlaka vurulan zərərə görə mülki məsuliyyətin sığortasında sığorta ödənişi sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalıya və ya sığorta olunana, habelə zərərçəkən üçüncü şəxsə dəyən real zərərin miqdarından çox ola bilməz.

## 11. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI

**11.1.** Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

**11.1.1.** sığortaçının hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda, habelə zərər dəymiş əmlakın ona təqdim edilməsi ilə bağlı bu qaydaların 11.2-ci bəndinə riayət edilmədikdə;

**11.1.2.** qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

**11.1.3.** müqavilə və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

**11.1.4.** sığortalının sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

**11.1.5.** sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməsi, o cümlədən bu qaydaların 11.2.1-ci bəndində müəyyən edilmiş məqsədlər üçün zəruri tədbirlərin görülməsi halları istisna olmaqla, digər hallarda əmlakın hadisə yerindən kənarlaşdırılmasının sığortaçını hadisənin səbəblərini və ya zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi;

**11.1.6.** bu qaydaların 14.2-ci bəndi nəzərə alınmaqla, sığorta predmeti, həmçinin Siğortalı şəxs və (və ya) sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;

**11.1.7.** əmlakın sığortası üzrə sığortalı, Siğortalı və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir.

**11.1.8.** baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

**11.1.9.** Sığorta hadisəsinin sığorta haqqı və ya onun hər hansı bir hissəsinin sığorta müqaviləsində nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, sığortaçının bu barədə yazılı xəbərdarlıqla son ödəmə müddəti müəyyən edilmişdirsə bu müddətin bitməsindən 3 gün sonra baş verməsi halında sığorta haqqı və ya onun müvafiq hissəsi ödənilməmiş olduqda;

**11.1.10.** sığorta qanunvericiliyində və ya sığorta qaydalarında nəzərdə tutulmuş digər hallarda.

**11.2.** Sığorta müqaviləsi bağlanarkən və ya bağlandıqdan sonra sığortalı özünə məlum olan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat verməmişdirsə.

**11.3.** Sığortalının sığorta qanunvericiliyində və ya bu qaydalarla nəzərdə tutulmuş vəzifələrini yerinə yetirmədiyi hallarda.

**11.4.** Sığorta qanunvericiliyi və bu qaydalarla nəzərdə tutulmuş digər hallarda.

## 12. SUBROQASİYA HÜQUQU

**12.1.** Subroqasiya - Sığorta ödənişinin həyata keçirilməsindən sonra, Sığorta olunanın səhhətinə vurulan zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı subroqasiya qaydasında tələb irəli sürmək hüququ, həmin ödəniş məbləği həddində Sığortaçıya keçir.

**12.2.** Sığortalı (Sığorta olunan) Sığortaçının subroqasiya hüququnun təmin edilməsi üçün öz imkanları çərçivəsində ona hər cür kömək göstərməli və Sığortaçını tələb irəli sürmək üçün zəruri olan bütün sənədlər, sübut və məlumatlarla təmin etməlidir.

**12.3.** Sığortalının(Sığorta olunanın) hər hansı məhkəmədən kənar razılaşma və ya məhkəmə qərarı əsasında zərərə görə məsuliyyət daşıyan şəxslərdən aldığı təminat məbləğləri, ilk növbədə Sığortaçının sığorta müqaviləsi üzrə həyata keçirdiyi sığorta ödənişlərinin əvəzinin ödənilməsinə xərclənəcək.

**12.4.** Sığortaçı ilə Sığortalı arasında başqa cür razılaşdırıldığı və belə razılaşmanın Sığorta müqaviləsində təsbit olunduğu hallar istisna olmaqla, Sığortalı (Sığorta olunan) zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri Sığortaçıya verməkdən imtina etdikdə, Sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir və ödənilmiş sığorta ödənişinin tam və ya müvafiq hissəsinin qaytarılması hüququnu əldə edir.

## 13. SIĞORTA MÜQAVİLƏSİNİN QAYDALAR ÜZƏRİNDƏ ÜSTÜNLÜYÜ

Bu Qaydalarda nəzərdə tutulmuş istisnalar və məhdudiyyətlər qanunvericiliyə zidd olmadığı hallarda tərəflərin razılığı ilə sığorta təminatına daxil edilə bilər.

## 14. XÜSUSİ ŞƏRTLƏR

**14.1.** Sığorta müqaviləsində qanunvericiliyə, bu qaydalara və bunlarla əlaqədar olan əlavə şərtlərə (klozlara) zidd olmayan xüsusi şərtlər də yazıla bilər.
**14.2.** Sığorta müqaviləsinə əlavə və dəyişikliklər qarşılıqlı razılaşma əsasında yazılı şəkildə rəsmiləşdirilir.
**14.3.** Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyət daşıyırlar.
**14.4.** Sığorta predmeti bir və ya bir neçə sığorta müqaviləsi ilə həqiqi dəyərindən artıq məbləğə sığortalandıqda sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsində sığorta müqaviləsi etibarsızdır.
**14.5.** Sığortalı ilə sığortaçı arasındakı razılaşmaya görə davamlı olaraq eynicinsli sığorta predmetinin müxtəlif hissələrinin oxşar şərtlərlə ayrı-ayrı dövrlər üzrə sığorta olunması vahid sığorta müqaviləsi tərtib edilməklə bir sığorta müqaviləsi əsasında həyata keçirilə bilər.
**14.6.** Sığortalı bu qaydaların 14.5-ci bəndində göstərilən əmlakın hər bir hissəsi haqqında sığorta müqaviləsində razılaşdırılmış məlumatları vaxtında, belə məlumatların təqdim edilmə vaxtı müqavilədə nəzərdə tutulmadıqda isə həmin məlumatları əldə etdikdən dərhal sonra sığortaçıya çatdırmalıdır. Məlumatlar əldə edildiyi zaman zərərlərin əvəzinin sığortaçı tərəfindən ödənilməyəcəyi məlum olsa belə sığortalı əldə etdiyi məlumatları sığortaçıya çatdırmalıdır.
**14.7.** Sığortalı tələb etdikdə sığortaçı bu qaydaların 14.5-ci bəndində nəzərdə tutulan müqavilənin aid olduğu əmlakın ayrı-ayrı hissələri üzrə sığorta müqaviləsi verməlidir.

## 15. İŞ SİRLƏRİNİN GİZLİ SAXLANILMASI

Sığortaçı, sığortalıya aid öyrənəcəyi iş sirlərini gizli saxlamamaqdan dəyən ziyan və zərərlərə görə məsuliyyət daşıyır.

## 16. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI

**16.1.** Sığorta müqaviləsi üzrə ortaya çıxan mübahisələr tərəflərin danışıqlar yolu ilə həll edilir.
**16.2.** Razılığa gəlinmədiyi təqdirdə mübahisələrə Azərbaycan Respublikasının mövcud qanunvericiliyində müəyyən olunmuş qaydada aidiyyatı üzrə məhkəmədə baxılır.
**16.3.** Sığorta müqaviləsindən irəli gələn bütün tələblər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətdə həll edilir.

## 17. SANKSIYALARA DAIR MADDƏ

Şirkət bu müqavilənin əhatə etdiyi hər hansı bölmələrinə əsasən məsuliyyət üçün heç bir ödəniş etməyə və ya onun hər hansı bir genişlənməsi çərçivəsində hər hansı ödəniş həyata keçirməyə borclu deyil: bu müqaviləni və/və ya sığortaçı, onun ana şirkəti və yaxud onun əsas nəzarət qurumunu tənzimləyən hər hansı qanun və/ və ya normativ aktla embarqo qoyulan və ya sığortalıya və ya bu müqavilə əsasında hər hansı başqa faydalanan şəxsə sığortalanma təmin etməyi və ya digər iqtisadi müavinət təklif etməyi sığortaçıya qadağan etməklə nəticələnən digər iqtisadi sanksiya forması tətbiq edilən hər hansı ölkə (ölkələr)də yaranan və yaxud sığortalı və ya bu müqavilənin hər hansı faydalanan şəxsi vətəndaşı və ya qurumu olduğu dövlətdən irəli gələn hər hansı iddia çərçivəsində itki üçün.

**KONTRAKTORUN (PODRATÇININ) ÇIRKLƏNMƏ ILƏ BAĞLI MƏSULIYYƏT SIĞORTASI**

**İrəli sürülən iddialar və Sığorta Müqaviləsində göstərilən Sığorta**

**Bildirişlər**

Siğorta Müqaviləsinin özünə məxsus müddəaları və tələbləri var və sığorta olunanın almış olduğu digər sığorta müqavilələrindən fərqli ola bilər.

Siğorta Müqaviləsinin hər hansı başlıqları və ya alt-başlıqlarının təsviri yalnız əlverişlilik məqsədilə daxil edilib və Siğorta Müqaviləsinin şərtləri və ya müddəalarının hər hansı hissəsini təşkil etmir.

**I. Sığorta Müqaviləsi**

**Siğorta Müqaviləsində Sığortalı** tərəfindən sığorta haqqının ödənilməsinin müqabilində və **Siğorta Müqaviləsində Sığortalının** Ərizəsində onun bir hissəsi olaraq bildirilmiş ifadələrə əsaslanaraq, Sığortaçı siğorta müqaviləsinin bütün şərtləri, istisnaları və müddəalarına müvafiq olaraq **Sığortalı ilə** aşağıdakılar barədə razılığa gəlir:

**BÖLMƏ 1 – SIĞORTA TƏMİNATI**

Sığortaçı **Sığortalanmış Əməliyyatlardan** irəli gələn **Çirklənmə ilə Bağlı Şərtlərin** səbəb olduğu **Bədən Xəsarəti, Mülkiyyətin Zədələnməsi**, və ya **Təmizləmə Xərcləri** üçün İddialar nəticəsində **Sığortalının** hüquqi olaraq **İtki** kimi ödəmək məcburiyyətində olduğu bütün məbləğləri **Sığortalı** adından ödəyəcək. Çirklənmə ilə bağlı Şərtlər Sığorta olunanın nöqteyi-nəzərindən gözlənilməz və ya nəzərdə tutulmayan şərtlər ola bilər. Həmin **iddialar** əvvəlcə **Sığortalıya** qarşı irəli sürülməli və siğorta müqaviləsinin **Qüvvədə olma Müddətində** Sığortaçıya bildirilməlidir.

Siğorta müqaviləsinin tətbiq edilməsi üçün aşağıda göstərilən bütün şərtlər təmin edilməlidir:

1. **İddia** ilə nəticələnən **Sığortalanmış Əməliyyatlar** Əlavədə göstərilən Əks qüvvəyə malik tarixdə və ya ondan sonra başlamalıdır.

2. Siğorta Müqaviləsinin Hissə IV. İDDİA MÜDDƏALARI, 1. İDDİA OLDUQDA SIĞORTA OLUNANIN VƏZİFƏLƏRİ, alt bənd 1-də göstərildiyi kimi, Sığortalı **İddia** haqqında **Siğorta Müqaviləsinin qüvvədə olduğu müddətdə** və ya **Siğorta Müqaviləsi Müddətinin** başa çatmasından dərhal sonra otuz (30) gün ərzində Sığortaçıya yazılı məlumat verməlidir.

**BÖLMƏ 2 - MÜDAFİƏ**

**Sığortalıya** qarşı yuxarıdakı Hissə I, Bölmə 1-in şamil edildiyi **İddia** irəli sürüldükdə, Sığortaçının əsassız, yalan və ya saxta olduğu halda belə hüquq məsləhətçiliyi təyin etmək və həmin İddianı müdafiə etmək hüququ var.

Hər hansı tətbiq olunan azadolma məbləğləri **Sığortalı** tərəfindən ödənildikdə, **İddia Xərcləri** Sığortaçı tərəfindən ödənilir və həmin ödənişlər əlverişli Məsuliyyət Limitini azaldır. **İddia Xərcləri** və ya **İtki** və ya hər ikisi üçün ödəniş etməklə tətbiq olunan Məsuliyyət Limiti dolduqdan sonra Sığortaçı hər hansı **İddianı** müdafiə etmək və ya müdafiəsini davam etdirmək öhdəliyi daşımır.

Qanunla **Sığortalının** Sığortaçının hesabına özünü müdafiə etmək üçün müstəqil hüquq məsləhətçisini seçmək hüququ olduqda, Sığortaçının həçmin hüquq məsləhətçisinə ödəməli olduğu vəkil haqları və digər məhkəmə prosesi xərcləri Sığortaçının adi işgüzar fəaliyyət ərzində **İddianın** ortaya çıxdığı və ya müdafiə olunduğu cəmiyyətdə bənzər **İddiaların** müdafiəsində cəlb etdiyi hüquq məsləhətçisinə faktiki ödəniləcək norma ilə məhdudlaşır.

Bundan başqa, Sığortaçı hüquq məsləhətçisinin səlahiyyətlər, o cümlədən **Sığortalıya** qarşı həlli gözlənilməkdə olan **İddiaya** bənzər İddiaların müdafiə olunmasında müəyyən minimum ixtisasa malik olmasını tələb etmək və həmin hüquq məsləhətçisində səhvlər və

ötürmələrin sığorta təminatı olmasını tələb etmək hüququnu icra edə bilər. Hər hansı bu kimi hüquq məsləhətçisi ilə əlaqədar olaraq, **Sığortalı** hüquq məsləhətçisinin **İddia** ilə bağlı Sığortaçının informasiya sorğusuna vaxtında cavab verəcəyi ilə razılaşır.

Bundan başqa, Siğortalı istənilən vaxt imzalanmış razılığı ilə müstəqil hüquq məsləhətçisini seçmək hüququndan müstəqil və tam imtina edə bilər.

**BÖLMƏ 3 - HESABLAŞMA**

**Sığortalı** Sığortaçı tərəfindən tövsiyə olunan hesablaşma və ya güzəştlə razılaşmaqdan imtina edirsə, həmin **İddia** ilə razılaşmaq və ya həmin iddia ilə bağlı hüquqi prosedurları davam etdirmək seçimini edirsə, o zaman Sığortaçının **İddia** üçün Məsuliyyət Limiti **İddia** ilə bağlı hesablaşmanı aparmanın mümkün olacağı məbləğ və əlavə olaraq, Siğorta Müqaviləsinin tətbiq edilən Məsuliyyət Limitlərinə müvafiq olaraq həmin imtina tarixinə qədər ortaya çıxmış **İddia Xərclərindən** artıq olmamalıdır.

## II. İstisnalar

Siğorta Müqaviləsi aşağıdakılar üçün sığorta təminatı təmin etmir və Sığortaçı aşağıdakı **İtki** üçün ödəniş etməyəcək:

1. **Sığortalının** ətraf mühit işləri, nəzarət və ya uyğunluq üzrə hər hansı işçisi və ya **Sığortalının** hər hansı meneceri, supervayzeri, məmuru, direktoru və ya tərəfdaşı **Çirklənmə ilə Şərtlərin İddiaya** təkan verə biləcəyindən xəbərdar olduğu halda və ya məqsədəuyğun olaraq proqnozlaşdırdığı halda, Siğorta Müqaviləsinin başlanğıc tarixindən əvvəl mövcud olan **Çirklənmə ilə bağlı Şərtlərə** əsaslanan və ya onlardan irəli gələn hər hansı **İddia**.

Bu istisna Sığortaçı və ya American International Group, Inc. şirkətinin üzvü olan hər hansı sığorta şirkəti (bundan sonra "filial" adlandırılacaq) tərəfindən verilmiş, əvvəlki KONTRAKTORUN Çirklənmə ilə bağlı Məsuliyyətinin Siğorta Müqaviləsi müddətində başlamış **Çirklənmə ilə bağlı Şərtlərə** əsaslanan və ya onlardan irəli gələn **İddialara** tətbiq edilmir, bu şərtlə ki:

a] **Sığortalı** Sığortaçı və ya onun filialı ilə Kontraktorun Çirklənmə ilə bağlı Məsuliyyətinin Sığortasını Çirklənmə ilə bağlı Şərtlərdən sonrakı müddətdə ardıcıl və ya fasiləsiz olaraq saxlamışdır; və

b] **Sığortalı** Sığortaçı və ya onun filialı ilə KONTRAKTORUN Çirklənmə ilə bağlı Məsuliyyətinin sığortası üçün müraciətini hər dəfə yenilədikdə həmin **Çirklənmə ilə bağlı Şərtləri** tam və bütünlüklə açıqlamışdır.

Lakin, yuxarıdakı müddəalardan heç biri müvafiq olaraq Sığortaçı və ya onun filialını bu Siğorta Müqaviləsini ləğv etmək və ya yeniləməmək hüququnun icrasından məhdudlaşdırmır və ya onun qarşısını almır.

2. **Sığortalının** qəsdən, bilərəkdən, qərəzlə və ya əvvəlcədən düşünülərək hər hansı qanun, qayda, fərman, inzibati şikayət, qanun pozuntusu haqqında bildiriş, bildiriş məktubu, icra əmri və ya hər hansı dövlət qurumu və ya orqanının təlimatına riayət etməməsinə əsaslanan və ya bundan irəli gələn hər hansı **İddia**.

3. **Siğortalı** və ya **Siğortalının** hər hansı filialı və ya **Siğortalıya** tam və ya qismən sahibkarlıq edən, onu idarə edən hər hansı təşkilat və ya həmin təşkilatın hər hansı filialı və ya **Siğortalıdan** alınmış lisenziya əsasında digərləri tərəfindən satılmış, istehsal edilmiş və ya paylanmış hər hansı məhsul və ya avadanlıq hissəsinin qüsurlu olması və ya nasazlığına əsaslanan, bunlardan irəli gələn və ya bunun nəticəsi olan hər hansı **İddia**.

4. Sığortaçı və ya Sığortaçının filialı tərəfindən verilmiş, xüsusi layihəyə tətbiq edilmək məqsədi daşıyan, əlaqədar olaraq **Siğortalı** tərəfindən Kontraktorun Çirklənmə ilə Bağlı Məsuliyyətinin Siğorta Müqaviləsinin təmin edildiyi hər hansı layihə ilə bağlı **Siğortalı** tərəfindən və ya tapşırığı ilə həyata keçirilən Sığortalanmış Əməliyyatlara əsaslanan və ya onlardan irəli gələn hər hansı **İddia**. Bu istisna hətta həmin Siğorta Müqaviləsi ilə hər hansı səbəbdən, o cümlədən məhdudiyyət olmadan aşağıdakı səbəblərdən tam və ya qismən sığortalanmayan **İddia Xərcləri** və ya **İtkiyə** də şamil edilir:

a] Siğorta Müqaviləsinin etibarlı olmaması; və ya

b] Həmin sığorta müqaviləsinə əsasən Məsuliyyət Limitləri və ya tətbiq olunan azadolma məbləği və ya özünü sığorta üçün tutulan məbləğin istisna edilməsi, azaldılması və ya tükənməsi.

5. Hər hansı müqavilə və ya sazişə əsasən başqa şəxslərin **Siğortalı** tərəfindən öz üzərinə götürdüyü məsuliyyətinə əsaslanan və ya onlardan irəli gələn hər hansı **iddia**. Bu istisna aşağıdakılara şamil edilmir:

a] **Siğortalının** sub-kontraktorları tərəfindən yerinə yetirilmiş **Sığortalanmış Əməliyyatlardan** irəli gələn hər hansı məsuliyyət, bu şərtlə ki, həmin məsuliyyət **Siğortalı** tərəfindən sifarişçi ilə həmin əməliyyatlar üçün yazılı müqavilədə qəbul edilsin və **İddia** müqavilənin bağlanmasından sonra baş versin;

b] **Sığorta Olunmuş Müqavilə** olan müqavilə və ya sazişdə qəbul edilmiş məsuliyyət, bu şərtlə ki, **İddia** müqavilə və ya sazişin bağlanmasından sonra baş versin; və ya

c] müqavilə və ya saziş olmadığı halda **Sığorta olunana** aid olan məsuliyyət.

6. Cəza, cərimə qismində baş vermiş və ya çoxsaylı itkilər, və ya hər hansı mülki, inzibati və ya kriminal cərimə və cəzalar, və ya hüquqi haqlar, xərclər və ya ödənişlərin geri qaytarılması və ya kompensasiya edilməsi üçün hər hansı **İddia**.

7. **Siğortalı** tərəfindən işə götürüldüyü müddətdə **Siğortalının** hər hansı işçisinin və ya **Siğortalıya** qarşı **İddia** qaldırmaq hüququ işçi ilə hər hansı iş, qan, evlilik və ya hər digər qohumluqdan irəli gələn hər hansı şəxsin məruz qaldığı **Bədən Xəsarətinə** görə hər hansı **İddia**. Bu istisna aşağıdakılara şamil edilir:

a] **Siğortalı** işəgötürən və ya hər hansı digər şəxs qismində məsuliyyət daşıdıqda; və ya

b] **Bədən Xəsarətinə** görə ziyan üçün ödəniş etməli olan hər hansı digər şəxslə ziyanı bölüşmək və ya kompensasiya etmək öhdəliyinə.

Bu istisna Siğortalı tərəfindən **Sığorta Müqavilədə** qəbul edilmiş məsuliyyətə şamil edilmir**.**

8. Hər hansı işsizlik, İşçilərə Təzminat, əlillik müavinətləri və ya digər bənzər qanunlara əsasən **Siğortalı** və ya hər hansı şəxsin məsuliyyət daşıdığı hər hansı öhdəliyə əsaslanan və ya ondan irəli gələn hər hansı **İddia**.

9. **Siğortalıya** məxsus olan, onun tərəfindən idarə edilən, və ya icarəyə götürülən və ya girov qoyulan hər hansı su gəmisi, hava gəmisi, **Motorlu Nəqliyyat vasitəsi** və ya mütəhərrik vasitəyə sahibkarlıq, həvalə, onun texniki xidmət, istismar və ya istifadəsinə əsaslanan və ya bunlardan irəli gələn hər hansı **İddia**. Bu istisna Siğortalı məxsus olan və ya olmayan, onun tərəfindən idarə olunan və ya icarəyə götürülən və ya girov qoyulan hər hansı su gəmisi, hava gəmisi, motorlu nəqliyyat vasitəsi və ya mütəhərrik vasitənin Yüklənməsi və ya Boşaldılması əməliyyatlarına şamil edilmir.

10. Elan edilib edilməməsindən asılı olmayaraq müharibə, basqın, xarici düşmən qüvvələrinin hərəkətləri, hərbi əməliyyatlar, o cümlədən terror aktı, vətəndaş müharibəsi, üsyan, qiyam, hərbi və ya ələ keçirilmiş hakimiyyət, tətil, nizamsızlıq və ya ictimai qarışıqlığın hər hansı nəticəsinə əsaslana və ya onlardan irəli gələn hər hansı **İddia**.

11. Şəxs(lər) və ya mülkiyyətin hər hansı radioaktiv maddəyə faktiki məruz qalması, məruz qalmasının iddia edilməsi və ya məruz qalma təhlükəsi altında olmasına əsaslanan və ya ondan irəli gələn hər hansı **İddia**.

12. **Sığortalanmış Əməliyyatların** həyata keçirildiyi sahənin hüdudlarından kənarda **Mobil Avadanlıq, Motorlu Nəqliyyat Vasitəsi**, hava gəmisi, su gəmisi, və ya mütəhərrik vasitə ilə nəql edilən, göndərilən və ya təchiz edilən hər hansı tullantı və ya hər hansı məhsullara əsaslanan və ya onlardan irəli gələn hər hansı **İddia**.

13. **Siğortalı** hər hansı birgə müəssisədə iştirakına əsaslanan və ya bundan irəli gələn hər hansı **İddia**.

14. **Siğortalı** tərəfindən həyata keçirilən və ya təmin edilən peşəkar xidmətlər, o cümlədən məhdudiyyət olmadan, memarlıq, məsləhət və ya mühəndislik işləri üçün sxemlər, layihələr, xəritələr, hesabatlar, tədqiqatlar, dəyişiklik təlimatları, plan spesifikasiyaları kimi təmin edilmiş tövsiyələr, fikirlər və strategiyalar, qiymətləndirmə işi, müdafiə vasitələrinin seçilməsi, sahənin texniki xidmət avadanlığının seçilməsi, və nəzarət, yoxlama və ya mühəndis-layihə işlərinə əsaslanan və ya bunlardan irəli gələn hər hansı **İddia**. Bu istisna **Sığortalanmış Əməliyyatları** həyata keçirən hər hansı sub-Kontraktorun uyğun olmayan nəzarəti və ya nəzarətsizliyi əsasında **Siğortalıya** qarşı məsuliyyəti təsdiq edilən hər hansı **İddiaya** şamil edilmir.

15. Aşağıdakılara əsaslanan və ya onlardan irəli gələn hər hansı **İddia**:

a] **Siğortalı** və ya onun təsisçisi, törəmə şirkəti və ya filialı tərəfindən və ya adından yerinə yetirilmiş işdə görülmüş iş və ya onun hər hansı hissəsi, bununla bağlı təchiz edilmiş materiallar , hissələr və ya avadanlıqlardan irəli gələn **Əmlak Zərəri**; və ya

b] **Siğortalının Məhsullarına** dəyən **Əmlak Zərəri**.

16. Asbest, asbest tərkibli materiallar, asbest əsaslı məhsullar, asbest lifləri, asbest tozu və ya asbest tullantısının faktiki və ya iddia olunan mövcudluğu və ya bunlara və ya bunların kənarlaşdırılması, təmizlənməsi, nəqli və ya utilizasiyası nəticəsində təsirə məruz qalmaya əsaslanan və ya onlardan irəli gələn hər hansı **İddia**.

17. **Terror**, o cümlədən məhdudiyyət olmadan yanğın, soyğunçuluq və ya oğurluğun səbəb olduğu eyni zamanda baş verən və ya gözlənilən hər hansı İtkidən birbaşa və ya dolayı yolla irəli gələn hər hansı **İddia**.

## III. Təriflər

1. **Bədən Xəsarəti** hər hansı şəxs tərəfindən **Çirklənmə ilə bağlı Şərtlərin səbəb olduğu** ölüm daxil olmaqla fiziki zədələnmə ilə müşayiət olunan fiziki zədələnmə, yaxud xəstəlik, əqli pozğunluq yaxud emosional həyəcan mənasında işlənir.

2. **İddia** çıxış yolu axtaran və **İtki üçün Siğortalı** tərəfindən Məsuliyyət və məsuliyyətin olmasını təsdiqləyən və **Siğortalı** tərəfindən qəbul edilən yazılı tələbdir.

3. **İddia Xərcləri** aşağıdakı mənalarda işlənir:

a] Siğortalı tərəfindən təyin edilmiş vəkil üçün tələb olunan xərclər; və

b] Siğortalı tərəfindən icazə verildiyi təqdirdə **İddia** ərizəsinin istintaqı, nizamlanması, müdafiəsi və apelyasiya ərizəsinin verilməsi nəticəsində yaranan bütün digər xərclər.

**İddia Xərclərinə** aşağıdakılar daxil olmayacaq:

a] **Siğortalının** hər hansı işçisinin maaşları; və

b] **Siğortalının** işçi heyəti yaxud maaşlı işçiləri yaxud ondan yüksək səviyyəli orqan, filial və şöbəsi tərəfindən yaxud onlar adından yerinə yetirilən xidmətlər və ya təchiz olunan mallar üçün **Siğortalının** üzərinə düşən xərclər və digər məxariclər, **Siğortalının** yazılı razılığından əvvəl öz qərarı ilə yaranmış xərclər və məxariclər istisna olunmaqla.

4. **Təmizləmə Xərcləri** torpaq, səth suları, qrunt suları yaxud **Çirklənmə ilə bağlı Şərtlərin səbəb olduğu** çirklənmənin aradan qaldırılması və təmiri ilə bağlı yaranan xərclərdir:

a] Ətraf mühit qanunu (ları) əsasında fəaliyyət göstərən hər hansı hökumət orqanı tərəfindən xüsusi icazə verilmiş; yaxud

b] Hökumət orqanı və ya üçüncü tərəfin üzərinə düşmüş.

5. **Sığortalanmış Əməliyyatlar** iş yerində **Siğortalı** tərəfindən yaxud adından həyata keçirilən, Cədvəldə göstərilmiş fiziki əməliyyatlar və fəaliyyətlər deməkdir.

6. **Siğortalı** aşağıdakı mənada işlənir:

a] **Adı Çəkilən Siğortalı**;

b] **Siğortalının** direktoru, məmuru, əməkdaşı yaxud işçisi olmuş yaxud olan və bu səlahiyyətlər çərçivəsində fəaliyyət göstərən hər hansı şəxs;

c] **Siğortalı** və müştəri arasında qüvvədə olan, müştərinin sığortalanmasını tələb edən yazılı müqavilə yaxud saziş olması şərtilə **Siğortalının Sığortalanmış Əməliyyatları** yerinə yetirdiyi müştəri. Ancaq belə müştərilər bu Siğorta Müqaviləsinə əsasən **Siğortalı** tərəfindən yaxud adından həyata keçirilmiş **Sığortalanmış Əməliyyatlardan** irəli gələn **İtki**yə görə sığortalanırlar, lakin müştərinin öz öhdəliyindən irəli gələn **İtkilər** üzrə sığortalanmırlar. Bu Siğorta Müqaviləsinə əsasən **Siğortalının** müştəriləri yalnız Məsuliyyət Limitlərinə görə sığortalanır və Siğorta Müqaviləsinin Məsuliyyət Şərtlərinə əsasən **Siğortalı ilə** yazılı müqavilə əsasında tələb olunan məbləğdən artıq sığortalanmırlar.

7. **Sığorta Müqavilə** dedikdə aşağıdakılar nəzərdə tutulur:

a] Fərmana əsasən bələdiyyəni sığortalamaq öhdəliyi, bələdiyyə üçün işlə əlaqədar istisna olaraq;

b] Sizin biznesinizə xas istənilən digər müqavilə yaxud sazişin (bələdiyyə üçün görülmüş işlə əlaqədar bələdiyyənin sığortalanması daxil olmaqla) əsasında digər tərəfin üçüncü şəxs yaxud təşkilat qarşısında **Bədən Xəsarəti, Əmlaka Zərər yaxud Təmizləmə Xərcləri** üçün ödəniş etməli olduğu hüquq pozuntusu öhdəliyini sizin öhdənizə götürməyinizi bildirən hissəsi. Hüquq pozuntusu öhdəliyi hər hansı saziş yaxud müqavilə olmadığı təqdirdə qanunla müəyyən olunan Məsuliyyət deməkdir.

8. **Yükləmə yaxud Boşaltma Sığortalanmış Əməliyyatların** həyata keçirildiyi iş yerində əmlakın təhvil verilməsi deməkdir:

a] Sonra əmlak gəmi, təyyarə, avtomobil yaxud hər hansı növ **Nəqliyyat Vasitəsinə** daşınması üçün qəbul olunduğu yerə gətirilir;

b] Əmlakın gəmi, təyyarə, avtomobil yaxud hər hansı növ **Nəqliyyat Vasitəsində** olduğu zaman; və yaxud

c] Əmlak gəmi, təyyarə, avtomobil yaxud hər hansı növ **Nəqliyyat Vasitəsi** ilə daşındığı yerdən çatdırılma yerinə gətirildiyi zaman;

Amma **Yükıəmə** yaxud **Boşaltmaya** əmlakın gəmi, təyyarə, avtomobil yaxud hər hansı növ Nəqliyyat Vasitəsinə birləşdirilməyən əl arabasından başqa mexaniki vasitələrlə daşınma daxil deyil.

9. **İtki** aşağıdakı mənalarda işlənir:

a] **Bədən Xəsarəti** yaxud **Əmlaka Zərərdən** irəli gələn kompensasiya zərərlərin nizamlanması yaxud pul mükafatları; yaxud

b] **Təmizləmə Xərcləri**, yaxud

c] **İddia Xərcləri**.

10. **Mikrob Maddəsi** sporlar vasitəsilə buraxılma yaxud hüceyrə parçalanması yoluyla əmələ gələn göbələk yaxud bakterial maddə mənasında işlənir, lakin belə **Mikrob Maddəsi** olub olmamasından asılı olmayaraq kif, mildü yaxud viruslar istisna olmaqla.

11. **Mobil Avadanlıq** əlavə edilmiş hər hansı aparat və avadanlıq daxil olmaqla aşağıdakı hər hansı növ quru nəqliyyat vasitələri deməkdir:

a] Buldozerlər, kənd təsərrüfatı texnikası, çəngəlşəkilli yükləyici və əsasən qeyri- ictimai yollarda istifadə üçün nəzərdə tutulmuş digər vasitələr;

b] Yalnız **Siğortalının** sahib olduğu yaxud icarə götürdüyü ərazidə istifadə üçün təchiz edilən nəqliyyat vasitələri;

c] Tırtıllı pilləkan üzərində hərəkət edən nəqliyyat vasitələri;

d] Aşağıda verilmiş montaj edilmiş sabit avadanlığa hərəkətlilik verən avtomatik hərəkət edən olub olmamasından asılı olmayaraq nəqliyyat vasitələri:

i] Elektrik kranlar, ekskavatorlar, yükləyici yaxud burğular; yaxud

ii] Qreyder, skreper yaxud yerbərkidici kimi yol tikinti yaxud təkrar üzləmə avadanlığı.

e] Yuxarıda 1, 2, 3, yaxud d bəndində göstərilməyənlər avtomatik hərəkət etməyən nəqliyyat vasitələridir və əsasən aşağıdakı növlü montaj edilmiş sabit avadanlığa hərəkətlilik vermək üçün təmin edilir:

i] Səpici, qaynaq edən, bina təmizləmə, geofiziki tədqiqat, işıqlandırma və quyuların yeraltı baxımı avadanlığı daxil olmaqla hava kompressorları, nasoslar və generatorlar, yaxud

ii] Qaldırıcı mini kranlar və işçiləri qaldırıb endirmək üçün buna bənzər qurğular.

f] Yuxarıda 1, 2, 3, 4 yaxud e bəndində göstərilməyən nəqliyyat vasitələri əsasən adamların və yüklərin daşınması üçün nəzərdə tutulub.

Montaj edilmiş sabit avadanlıq qoşulmuş avtomatik hərəkət edən nəqliyyat vasitələrinin aşağıdakı növləri **Mobil Avadanlıq** hesab edilməməsinə baxmayaraq onlar **Motorlu nəqliyyat vasitələri** adlanır.

i] Avadanlıq əsasən aşağıdakı məqsədlə hazırlanıb:

a] Qarın təmizlənməsi;

b] Yolun təmiri, lakin tikinti və yenidən üzlənməsi bura daxil deyil; yaxud

c] Küçənin təmizlənməsi.

ii] Adamların və yüklərin daşınması üçün istifadə olunan qaldırıcı mini kranlar və avtomobilə yaxud yük avtomobili şassisinə montaj edilmiş buna bənzər qurğular, və

iii] Səpici, qaynaq edən, bina təmizləmə, geofiziki tədqiqat, işıqlandırma və quyuların yeraltı baxımı avadanlığı daxil olmaqla hava kompressorları, nasoslar və generatorlar.

12. **Motorlu nəqliyyat vasitələri** dedikdə avtomobil, furqon, yük maşını, treyler yaxud ictimai yollarda istifadə üçün nəzərdə tutulan yarı-treyler nəzərdə tutulur, lakin bura **Mobil Avadanlıq** daxil deyil.

13. **Siğortalı** Cədvəlin 1-ci Bəndində qeyd edilmiş şəxs yaxud təşkilatdır.

14. **Siğortalının Məhsulu Siğortalı** tərəfindən verilmiş lisenziya əsasında mal, məhsul yaxud avadanlıq hissələri və onların hissələri və həmçinin bu mal, məhsul yaxud avadanlıq hissələrinin birləşdirildiyi digər məhsullar mənasında işlənir, bunlar **Siğortalı, Siğortalının** tam yaxud qismən sahib olduğu, bu təşkilatın **Siğortalını** yaxud idarə etdiyi filialı tərəfindən istehsal olunur, satılır, təchiz edilir və ya təmin edilir.

15. **Çirklənmə ilə bağlı Şərtlər** torpağa, atmosferə yaxud su axınına atılmış tüstü, buxar, his, buğ, turşu, qələvi, zəhərli kimyəvi maddələr, maye yaxud qaz, tullantı materialı və ya digər qıcıqlandırıcı qatışıqları yaxud çirkabların axıntısı, səpələnməsi, buraxılması yaxud sızması deməkdir, bir şərtlə ki, belə şərtlər ətraf mühitdə təbii hal kimi olmasın. **Çirklənmə ilə bağlı Şərtlərə Mikrob Maddəsi** daxil deyil.

16. **Sığorta Müddəti** Cədvəlin 2-ci Bəndində göstərilən müddəti və ya bu Sığorta Siyasətinin ləğvi nəticəsində daha qısa müddət ərzində olan müddəti bildiririr.

17. **Əmlaka Zərər** dedikdə aşağıdakılar nəzərdə tutulur:

a] İstifadə itkisi ilə nəticələnmə daxil olmaqla daşınar əmlakın fiziki zədələnməsi yaxud dağılması; yaxud

b] Fiziki zədələnmə yaxud dağıntısı olmayan daşınar əmlakın istifadə itkisi;

Bir şərtlə ki, belə fiziki zədələnmə yaxud dağıntı yaxud istifadə itkisi **Çirklənmə ilə bağlı Şərtlər** nəticəsində olsun.

18. **Terrorizm** dedikdə hər hansı təşkilat, hökumət, hakimiyyət, dövlət yaxud hərbi qüvvə adından yaxud onunla əlaqədar şəxs yaxud qrup tərəfindən əsas məqsədi hökumət, mülki əhalini yaxud onun bir hissəsini qorxutmaq, nəyəsə məcbur etmək yaxud zərər vermək, iqtisadiyyatın bir hissəsini dağıtmaq olan şəxs və ya əmlaka qarşı güc yaxud zorakılıqdan istifadə edilməsi yaxud insan həyatı yaxud mülkiyyət üçün təhlükəli olan hərəkət edilməsi və ya elektron yaxud kommunikasiya sisteminə mane olan və ya onu sıradan çıxaran hərəkət etməsi nəzərdə tutulur.

## IV. İddia Müddəaları

### BÖLMƏ 1 – İDDİA OLDUQDA SIĞORTALININ VƏZİFƏLƏRİ

Siğorta Müqaviləsində verilmiş sığortalanma hüququnun ilkin şərti kimi **Siğortalı** aşağıdakıları etməlidir:

1. **İddia** olduğu halda, **Siğortalı** Sığortaçının nümayəndəsinə (lərinə) bu bənddə göstərildiyi kimi **Siğortalı** tərəfindən **İddianın** alınması barədə dərhal xəbərdarlıq göndərəcək.

Bütün İddialar haqqında məlumat veriləcək:

**İddia Şöbəsi,**
**Çartis Azərbaycan Sığorta Şirkəti ASC**
Nizami küçəsi, 96, Ləndmark Binası
AZ1010, Bakı, Azərbaycan Respublikası

və ya Sığortaçı tərəfindən dəyişdirilmiş digər ünvana (lara) yazılı şəkildə.

2. **Siğortalı** Sığortaçının tələbi ilə məlumat verilməsində Sığortaçı ilə tam əməkdaşlıq edəcək. **İddia** qaldırıldıqda, **Siğortalı** və ya onun nümayəndəsi tərəfindən bu İddianı alındıqdan sonra **Siğortalı** aşağıdakıları mümkün qədər tez vaxt ərzində Sığortaçıya göndərəcək:

a] **Siğortalı** və hər hansı həqiqi yaxud potensial İddiaçı arasında olan bütün yazışmalar;

b] məhkəmə, hökumət yaxud qanunla müəyyən edilmiş orqan yaxud təşkilat, yerli icra orqanı yaxud buna bənzər təşkilatın bütün tələbləri, çağırışları, xəbərdarlıqları, iddia ərizələri, rəsmi sənədlər;

c] **İddianı** araşdırmaq üçün **Siğortalı** tərəfindən təyin edilmiş şəxslər tərəfindən tərtib edilmiş bütün texniki hesabatlar, laboratoriya məlumatı, sahə qeydləri yaxud hər hansı digər sənədlər;

d] **Siğortalının** bu materialdan hər hansı məqsədlə istifadə edib etməməsindən asılı olmayaraq **Siğortalı** tərəfindən tutulmuş ekspertlərin hazırladığı bütün ekspert hesabatları, tədqiqatları və məlumatları; və

e] **Siğortalı** tərəfindən **İddiaya** uyğun olub olmamasından **İddia** ilə bağlı **Siğortalı** tərəfindən hazırlanmış yaxud aşkarlanmış hər hansı başqa informasiya.

3. Bütün **Sığortalılar** İddianı nizamlamaq, tədqiq etmək və müdafiə etmək üçün lazımi köməkliyi göstərərək Sığortaçı ilə əməkdaşlıq edəcəklər və təmizləmə yaxud təmizlənmənin həyata keçirilməsi ilə bağlı müzakirələrdə iştirak edəcək, burada Sığortaçı bu Bölmənin 2-ci Bəndinə əsasən öz hüquqlarını həyata keçirməlidir.

a] **Siğortalı** Sığortaçını **Siğortalının** hər hansı işçisi, agenti, nümayəndəsi yaxud müstəqil kontraktorunun müsahibəsinə sərbəst girişinə və **İddia** ilə bağlı **Siğortalının** hər hansı sənədinə baxmağa imkan verməyə razılaşır.

b] Sığortaçının tələbi ilə **Siğortalı** məhkəmə iclaslarında, ifadələrdə və məhkəmə işlərində iştirak edəcək, razılıqların qüvvəyə minməsinə, təmin edilməsinə və şahidlik edilməsinə və şahidlərin iştirakının təmin edilməsinə yardım göstərəcək və bu Siğorta Müqaviləsinə əsasən qaldırılan İddiaların təhqiqatı və müdafiəsində lazımi qaydada köməklik edəcək.

c] Heç bir **Siğortalı** Məsuliyyət qəbul etməyəcək, hər hansı qanunu rədd etməyəcək yaxud məhdudiyyət müddətini uzatmayacaq və ya **Siğortalının** öz hesabına olanlar istisna olmaqla, Sığortaçının yazılı razılığı olmadan könüllü olaraq hər hansı ödənişi həyata keçirməyəcək, hər hansı öhdəliyi öz üzərinə götürməyəcək yaxud xərc çəkməyəcək.

d] Sığortaçının tez-tez tələb etdiyi kimi **Siğortalı** and içərək materialları istintaqa (lara) tək-tək təqdim edəcək.

e] **Siğortalı** hər hansı İddia faktlarının və hallarının Sığortaçının vəkili yaxud nümayəndəsindən başqa biri ilə müzakirəsində iştirak etməyəcək.

### BÖLMƏ 2 - TƏMİZLƏMƏ

Sığortaçının **Təmizləmə Xərcləri** ilə bağlı müzakirələrdə iştirak etmək və Məsuliyyət Limitinə kimi hər hansı İddianın nizamlanması və Təmizləmənin bütün aspektləri üzrə birbaşa nəzarəti öz üzərinə götürmək öhdəliyi deyil haqqı vardır. Bu hüququn həyata keçirildiyi halda, **Siğortalı** Sığortaçının tələbi ilə **Siğortalının** azadolması çərçivəsində olan **İtkinin** hər hansı elementi üçün Sığortaçının haqqını dərhal ödəyəcək.

**BÖLMƏ 3 – MÜMKÜN İDDİA HAQQINDA MƏLUMAT VERİLMƏSİ**

Əgər **Siğortalı** İddia nəticəsində gözlənilən **Sığortalanmış Əməliyyatlar**dan irəli gələn **Çirklənmə ilə bağlı Şərtlərinin Siğorta Müqaviləsinin Siğorta Müqaviləsi Müddətində** bu haldan birinci xəbərdar olubsa, onda **Siğortalı** Sığortaçını aşağıda verilmiş informasiyanın olduğu yazılı xəbərdarlıq göndərə bilər. Əgər belə yazılı xəbərdarlıq Sığortaçı tərəfindən ləğv olunmanın qüvvəyə mindiyi gün yaxud bu Sığorta Siyasətinin yenilənməməsi tarixindən əvvəl alınmışdırsa, onda bu davranışdan irəli gələrək **Siğortalıya** qarşı irəli sürülmüş hər hansı **İddialar** Sığortaçı tərəfindən belə yazılı xəbərdarlıq alındığı tarixdə sığortanın edilməsi məqsədilə hesab ediləcək, bir şərtlə ki, belə **İddialar** IV Bənddə göstərilmiş ünvana yazılı şəkildə bildirilsin. Yuxarıdakı I Bənd Siğorta Müqaviləsinin ləğv olunması yaxud yenilənməsinin və fasiləsiz yaxud davamlı yenilənməsi tarixindən etibarən beş (5) illik başa çatmadan əvvəli göstərir.

Siğortalı Sığortaçı ilə tam əməkdaşlıq edəcək və Sığortaçı yaxud onun səlahiyyətli nümayəndələri tərəfindən aparılan hər hansı təhqiqat **İddiaya** tətbiq oluna bilən kimi IV Hissənin I Bəndində verilmiş şərtlərə yol verməklə həyata keçiriləcək.

Bu Maddədə verilən sığortalanmanın ilkin şərti kimi Sığortaçıya aşağıdakılar haqqında məlumatın olduğu yazılı xəbərdarlıq edilməlidir:

1. Mümkün **İddia** şərtilə yol verilə bilən **Çirklənmə ilə bağlı Şərtlər;**
2. **Siğortalı** tərəfindən yuxarıda (1) göstərilmiş həyata keçirilmiş **Sığortalanmış Əməliyyatlar**;
3. Belə davranışın tarixi (ləri);
4. Belə davranışdan irəli gələ bilən zədələnmə yaxud xəsarət;
5. **İddia** mövzusu olan **Siğortalının** (ların) həqiqiliyi (ləri);
6. Hər hansı potensial İddiaçının (ların) həqiqiliyi (ləri);
7. Hər hansı belə iddianın gözlənilən yeri (ləri); və
8. **Siğortalının** potensial **İddia** haqqında ilk xəbərdar olması kimi hallar.

Əgər yuxarıda verilmiş məlumatların hamısı burda olduğu kimi verilməyibsə yaxud Sığortaçının fikri ilə müvafiq hesab edilməyibsə Sığortaçı **Siğortalıya** məlumat verəcək ki, yazılı xəbərdarlıqla bağlı Siğorta Müqaviləsinin Siğorta Müqaviləsi Müddətindən sonra qaldırılmış hər hansı **İddia** bu Siğorta Müqaviləsinə əsasən sığortalanmış kimi hesab edilməyəcək.

## V. Məsuliyyət Limiti və Azadolma

Cədvəldə göstərilən Məsuliyyət Limitləri və aşağıdakı qaydalara görə əksər Sığortaçı aşağıdakıların sayından asılı olmayaraq ödəniş edəcək:

1. **Sığorta olunanlar**;
2. **İddialar**;
3. **İddialar** irəli sürən şəxslər yaxud təşkilatlar**.**

**BÖLMƏ 1 - MƏSULIYYƏT LİMİTİ - CƏMİ**

Sığortaçının Məsuliyyət Limiti heç bir halda bütün sığortalanmış İddiaların nəticəsi olaraq Cədvəldə “Yekun” kimi göstərilmiş məbləğdən çox olmayacaq. Bu Məsuliyyət Limiti aşağıda V Bölmənin 3-cü Bəndində verildiyi kimi məlumat verilənlər daxil olmaqla bütün sığortalanmış İddialara görə Sığortaçının bu Siğorta Müqaviləsinə əsasən ödəyəcəyi **İtki** məbləğinin cəmidir.

**BÖLMƏ 2 - MƏSULIYYƏT LİMİTİ – HƏR BİR İDDİA**

Yuxarıda 1-ci Bölmə Məsuliyyət LİMİTİ- YEKUN şərtilə Sığortaçının hər bir sığortalanmış **İddia** üçün Məsuliyyət Limiti hər bir **İddia** üçün Cədvəldə göstərilmiş məbləğdən çox olmayacaq. Bu Məsuliyyət Limiti **İddia Xərcləri** yaxud **İtkinin** və ya hər bir sığortalanmış **İddia** üçün Sığortaçıların ödəyəcəyi maksimum məbləğdir.
Məsuliyyət Limiti qurtardıqdan sonra Sığortaçı hər hansı iddianı müdafiə etməyəcək yaxud **İddia** üçün **İddia Xərcləri** yaxud **İtki** üçün ödəniş etməyəcək.

**BÖLMƏ 3- ÇOXSAYLI İDDİALAR**

İddiaların, **Çirklənmə ilə bağlı Şərtlər**in, iddiaçıların yaxud Sığorta Olunanların sayından asılı olmayaraq Sığortaçının İddialara görə Məsuliyyət Limitinin yekunu bir yaxud daha çox Siğorta Müqaviləsi Müddətində qarşılıqlı əlaqəli, birləşmiş, təkrarlanan yaxud davamlı **Çirklənmə ilə bağlı Şərtlər** franzişa şərtilə bir **İddia** kimi nəzərə alınacaq və qüvvədə olan Siğorta Müqaviləsinin Cədvəldə Məsuliyyət Limiti ilə bağlı göstərilmiş hər bir **İddia** birinci **İddia** qaldırıldıqda və Sığortaçıya bu haqda məlumat verildikdə ilkin **İddianın** Sığortaçıya xəbər verildiyi Siğorta Müqaviləsi Müddəti ərzində ilk xəbər verilmiş hesab olunacaq.

**BÖLMƏ 4 - AZADOLMA – HƏR BİR İDDİA**

Cədvəldə verilmiş azadolma hər bir **İddiaya** tətbiq edilir və **Siğortalı** tərəfindən ödəniləcək və sığortalanmamış qalacaq. Məsuliyyət Limitləri azadolma dərəcəsində tətbiq ediləcək. Azadolma **İtki** yaxud **İddia Xərcləri** və ya hər ikisinin ödənişinə tətbiq ediləcək.

Sığortaçı azadolma məbləğinin hamısını yaxud bir hissəsini əvvəlcədən ödəyə bilər və bu ödəniş haqqında xəbərdarlıq aldıqdan sonra **Siğortalı** Sığortaçı tərəfindən əvvəlcədən ödənilmiş fransızanın əvəzini Sığortaçıya dərhal ödəyəcək.

## VI. Uzadılmış İddia Müddəti

Əgər Sığortaçı bu Siğorta Müqaviləsini ləğv edir yaxud yeniləməkdən imtina edirsə (mükafatın ödənilməməsindən başqa hər hansı səbəbdən) yaxud **Siğortalı** bu Siğorta Müqaviləsini ləğv edir yaxud yeniləməkdən imtina edirsə, bu zaman **Siğortalının** Siğorta Müqaviləsinin ümumi illik mükafatının 100%-nin əlavə mükafatı üçün on iki (12) aylıq Uzadılmış Hesabat Müddəti satın almaq hüququ olacaq. Uzadılmış Hesabat Müddəti ərzində **Siğortalıya** qarşı irəli sürülmüş hər hansı **İddia** ləğv etmə yaxud müddətinin bitməsi tarixindən əvvəl yaxud Cədvəldə verilmiş Keçmiş Tarixdən sonra həyata keçirilmiş **Sığortalanmış Əməliyyatlar**dan irəli gəlməlidir.

Bu hüququ həyata keçirmək üçün **Siğortalı** Uzadılmış Hesabat Müddəti üçün ləğv etmə yaxud müddətinin bitməsi tarixindən sonra 30 (otuz) gün müddətində Sığortaçıya yazılı sorğu göndərməlidir. **Siğortalı** tərəfindən otuz (30) gün ərzində bu xəbərdarlığın edilməməsi Uzadılmış Hesabat Müddəti hüququnu rədd edir. Bütün lazımi əlavə mükafat hər bir belə sorğöu olduqda vaxtında ödənilməlidir. Bu xəbərdarlığın **Siğortalı** tərəfindən əvvəlcədən sifariş olunmuş poçtla Sığortaçının Cədvəldə göstərilmiş ünvanına göndərilməsi yetərli xəbərdarlıq sübutu olacaq.

Yenilənmə üçün müxtəlif mükafat yaxud Məsuliyyət limitinin qiymətləndirilməsi bu təminat məqsədilə yenilənmənin ləğvi yaxud imtinasını təyin etmir.

**Siğortalının** Uzadılmış Hesabat Müddəti barədə sövdələşmə hüququnun ilkin şərti kimi **Siğortalı** Siğorta Müqaviləsinin bütün şərtlərinə qane olmalıdır.

Hər hansı Uzadılmış Hesabat Müddətinin başlanğıcında bütün mükafat qazanılmış hesab ediləcək və **Siğortalı** Uzadılmış Hesabat Müddətini hər hansı səbəbdən vaxtından əvvəl bitirdikdə Sığortaçı bu Uzadılmış Hesabat Müddəti üçün ödənilmiş mükafatın hər hansı hissəsini **Siğortalıya** qaytarmaq üçün məsuliyyət daşımayacaq.

Uzadılmış İddia Müddətinin təminatının satın alınması Yekun Limiti bərpa etməyə xidmət etməyəcək yaxud əks halda Cədvəldə verilmiş Məsuliyyət Limitini artıracaq.

## VII. Ərazi

Siğorta Müqaviləsi Azərbaycan Respublikasının (müqavilədə digər qanun və yurisdiksiya razilaşdırılmayıbsa) Məhkəməsində irəli sürülən **İddialara** tətbiq olunur.

## VIII. Şərtlər

1. **Müflislik**

Siğorta Müqaviləsinə əsasən **Siğortalının** əmlakının əldən çıxması yaxud müflisliyi onu hər hansı öhdəliyindən azad etməyəcək.

2. **Ərizə**

Ərizədəki faktlar **Siğortalının** təqdim etdiyi məlumatlardır və sənəd hesab edilir. Siğorta Müqaviləsi bu məlumatların düzgünlüyü və dəqiqliyi əsasında verilir. Sığortanın birləşdirilməsindən sonra Ərizə Siğorta Müqaviləsinə əlavə ediləcək və onun bir hissəsi olacaq. Bu Siğorta Müqaviləsi **Siğortalı** və Sığortaçı yaxud onun bu Sığorta Siyasəti ilə bağlı hər hansı nümayəndəsi arasında olan bütün sazişləri ifadə edir.

3. **Audit**

Sığortaçı Siğorta Müqaviləsi Müddəti ərzində istənilən vaxt və Siğorta Müqaviləsinin tam bitməsindən sonra üç (3) il ərzində **Siğortalının** mühasibatlıq kitabı və sənədlərini yoxlaya və təftiş edə bilər.

4. **Yalan yaxud Saxta İddialar**

Əgər **Siğortalı** hər hansı iddianın yalan yaxud sacta olduğunu bilə-bilə bu **İddia** haqda məlumat verirsə bu Siğorta Müqaviləsi qüvvədən düşəcək və burada verilmiş bütün sığortalanma müsadirə ediləcək.

5. **Nəzarət**

Sığortaçının istənilən zaman **Siğortalının** əmlakı yaxud əməliyyatlarına davamlı olaraq yoxlamaq, sınamaq və nəzarət etmək öhdəliyi deyil, hüquq vardır. Nə Sığortaçının yoxlama, sınama və nəzarət etmə hüququ, nə əsil öhdəliyi nə də hər hansı xəbərdarlığı Sığortaçı yaxud digər şəxslər tərəfindən əmlak yaxud əməliyyatların təhlükəsiz, sağlam olmasını və qəbul olunan mühəndislik təcrübəsinə uyğun olmasını və ya hər hansı qanun, qayda və ya nizamnamə ilə uyğun olmasını müəyyənləşdirmək yaxud zəmanət vermək öhdəliyini təyin etməyəcək.

6. **Təyinat**

Siğorta Müqaviləsi və gəlirlər Sığortaçının əvvəlcədən yazılı razılığı olmadan təyin edilə bilməz. Siğorta Müqaviləsinə əsasən mənfəətin təyin olunması Sığortaçının yazılı razılığı (əgər varsa) təsdiq edilənədək onun öhdəsinə qoyulmayacaq.

7. **Subroqasiya**

Siğorta Müqaviləsinə əsasən hər hansı ödəniş olduqda Sığortaçı hər hansı şəxs yaxud təşkilata qarşı **Siğortalının** ödəmə hüquqlarına dəyişiklik edəcək və **Siğortalı** sənəd və aktları icra edəcək və çatdıracaq və bu hüquqların təminatı üçün bütün lazımi addımları atacaq. **Siğortalı** bu hüquqlara yaxud onların **Siğortalı** yaxud onun nümayəndəsi tərəfindən icrasına zərər vermək üçün heç nə etməyəcək. Siğorta Müqaviləsinə əsasən **İtki**nin ödənişindən yaranan subroqasiya nəticəsində hər hansı geri ödəniş sığorta limiti miqdarında hər hansı ödəniş həddində ilk olaraq Sığortaçıya çoxalır; Siğorta Müqaviləsinə əsasən Sığortaçının öz ödənişi miqdarında Sığortaçıya; və sonra Azadolma məbləğində **Siğortalıya**. Bu subroqasiya prosesində yaranan xərclər hər bir maraqlı tərəfin yenidən bərpada olan hissəsi yekun bərpaya uyğun gəlməsi şərtilə onlar arasında bölünəcək.

8. **Dəyişikliklər**

Hər hansı nümayəndəyə xəbərdarlıq yaxud hər hansı nümayəndə və ya digər şəxs tərəfindən məlumat Siğorta Müqaviləsinin hər hansı hissəsindən imtina yaxud dəyişikliyə təsir etməyəcək yaxud Sığortaçını Siğorta Müqaviləsinə uyğun olaraq hər hansı hüquq müdafiəsindən çəkindirməyəcək; nə də Siğorta Müqaviləsinin şərtlərindən imtina edilməyəcək yaxud dəyişdirilməyəcək, Siğorta Müqaviləsinin bir hissəsini formalaşdırmaq üçün verilmiş indossament istisna olmaqla.

9. **Eksklüziv Nümayəndə**

Cədvəlin 1-ci Bəndində **Siğortalı** digər **Siğortalılar** adından fəaliyyət göstərəcək və mükafatın ödənişi yaxud qaytarılması və Siğorta Müqaviləsinin bir hissəsini formalaşdırılması üçün verilmiş hər hansı indossamentin alınması və qəbul olunması, ləğv etmə yaxud yenilənməmə haqqında xəbərdarlığın verilməsi və alınması.

10. **Ləğv etmə**

Siğorta Müqaviləsi **Siğortalı** tərəfindən Sığortaçı yaxud onun səlahiyyətli nümayəndələrinə təslim etməklə yaxud Sığortaçıya ləğv olunmanı bildirən yazılı xəbərdarlıq göndərməklə ləğv edilə bilər. Siğorta Müqaviləsi Sığortaçı tərəfindən **Siğortalıya** onun Cədvəldə göstərilən ünvanına bu ləğv etmə qüvvəyə minməzdən otuz (30) gün əvvəl (mükafatın ödənilməməsi üçün 10 gün) yazılı xəbərdarlıq göndərməklə ləğv edilə bilər. Bu xəbərdarlığın poçtla göndərilməsinin sübutu bu yazılı xəbərdarlığın özü olacaq.

Təslim vaxtı yaxud ləğv etmənin xəbərdarlıqda verilmiş qüvvəyə minmə tarixi və saatı Sığorta Siyasəti Müddətinin sonu olacaq. İstər **Siğortalı** istərsə də Sığortaçı tərəfindən bu yazılı xəbərdarlığın çatdırılması poçtla çatdırılma ilə eyni hesab ediləcək. Əgər **Siğortalı** ləğv edirsə, qazanılmış mükafat adi qısa tarif cədvəli və üsuluna uyğun olaraq hesablanacaq. Əgər Sığortaçı ləğv edirsə, qazanılmış mükafat proporsional şəkildə hesabalanacaq. Sığorta haqqının nizamlanması istər ləğv etmə zamanı istərsə də ləğv etmə qüvvəyə

mindikdən sonra ən tez zamanda qüvvəyə minə bilər, lakin qazanılmamış mükafatın ödənişi yaxud təklif edilməsi ləğv etmə şərti deyildir.

11. **Başqa Sığorta**

Siğorta Müqaviləsinin şərtlərinə və müddəalarına əsasən sığortalanan **İtki** üçün **Siğortalının** başqa sığortası varsa, Sığortaçının **Siğortalıya** qarşı aşağıdakı öhdəlikləri olacaq:

a] Bu sığorta alına bilən olub olmamasından asılı olmayaraq hər hansı başqa etibarlı sığorta məbləği üzrə eksedent sığorta kimi tətbiq olunacaq. Siğorta Müqaviləsinə əsasən hər hansı **İtkinin** əvəzinin qaytarılması ilə əlaqədar müdafiə etmək öhdəliyi daxil olmaqla bu eksedent sığorta hər hansı Sığortaçı yaxud **Siğortalının** müflislik yaxud ödəyə bilməmə qabiliyyəti yaxud ödəmək istəməməsinin nəticəsində artırılmayacaq yaxud genişləndirilməyəcək.

b] Bu sığortanın eksedent sığorta olduğu yerdə Sığortaçı **İtkinin** yalnız öz payına düşən hissəsini ödəyir və bud a bütün digər belə etibarlı sığortanın yekun məbləğindən artıqdır.

Sığortaçının tələbindən sonra **Siğortalı** dərhal Sığortaçını Siğorta Müqaviləsinin şərtlərinə və müddəalarına əsasən sığortalanmış **İtkiyə** tətbiq olunan bütün sığorta müqavilələrinin nüsxələri ilə təmin edir.

12. **Sığortaçıya qarşı İddia**

İlkin şərt kimi Siğorta Müqaviləsinin bütün şərtlərinə tam uyğunluq olmuş olsun və nə də **Siğortalının** ödəniş etmək öhdəliyinin məbləği **Siğortalıya** qarşı məhkəmə hökmü yaxud arbitraj qərarı ilə müəyyənləşdirilməyənədək yaxud **Siğortalı**, iddiaçı və Sığortaçının yazılı razılığı olanadək Sığortaçıya qarşı heç bir iddia qaldırılmayacaq.

Bu hokum, arbitraj qərarı yaxud yazılı razılığı təmin edən hər hansı şəxsin yaxud təşkilatın və ya hüquqi nümayəndənin Siğorta Müqaviləsinə əsasən Siğorta Müqaviləsinin verdiyi sığorta həddində bərpa etmək hüququ olacaq. Siğorta Müqaviləsinə əsasən heç bir şəxs yaxud təşkilatın **Siğortalının** öhdəliyini müəyyən etmək üçün **Siğortalıya** qarşı əməldə iştirak etmək üçün Sığortaçıya qoşulmaq hüququ olmayacaq, nə də Sığortaçı **Siğortalı** yaxud onun hüquqi nümayəndəsi tərəfindən məhkəməyə cəlb edilə bilməz.

13. **Hüquqi Normaların və Məhkəmənin Seçilməsi**

**Siğortalı** və Sığortaçı arasında Siğorta Müqaviləsinin hər hansı şərti, müddəası və ya bəndinin mənası, izahı yaxud digər əməliyyatı ilə bağlı və ya Siğorta Müqaviləsinin etibarlılığı və yaradılması haqqında mübahisənin məhkəmə prosesi, arbitraj yaxud digər forma ilə nəticələnən hal baş verərsə, **Siğortalı** və Sığortaçı razılaşırlar ki, Azərbaycan Respublikasının (müqavilədə digər qanun və yurisdiksiya razilaşdırılmayıbsa) qanunu tətbiq ediləcək və bütün məhkəmə prosesi, arbitraj və mübahisələrin digər həll yolu Azərbaycan Respublikasının (müqavilədə digər qanun və yurisdiksiya razilaşdırılmayıbsa) qanunvericiliyi ilə baş verəcək.

Əgər **Siğortalı** və Sığortaçı hər hansı mübahisəni arbitraj yolu ilə həll etməyə razılaşırlarsa, arbitraj prosesi Azərbaycan Respublikasında (müqavilədə digər qanun və yurisdiksiya razilaşdırılmayıbsa) müvafiq qanunvericiliyə uyğun şəkildə aparılacaq.

## TARİF DƏRƏCƏLƏRİNİN HESABLANMASI

(sığorta məbləğinə %-lə)
sığorta obyekti, keçirilən tədbirlər, riskin dərəcəsindən asılı olaraq

Cədvəl 1

| Sığortalanan fəaliyyətin növü | Vurulan zərərə görə sığorta tarifləri | | |
|---|---|---|---|
| | Şəxsə | Əmlaka | Ətraf mühitə |
| İctimai kütləvi tədbirlərin təşkili və keçirilməsi | 0,30 | 1,25 | 1,4 |
| İdman tamaşa və mədəni maarif tədbirlərin təşkili və keçirilməsi | 0,20 | 1,50 | 1,5 |
| Reklam və bayram tərtibatı ilə əlaqədar işlərin təşkili və keçirilməsi | 0,80 | 0,75 | 1,2 |
| Binaların, tikintilərin, ərazilərin, torpaq sahələrin saxlanılması və istismarı | 0,80 | 1,50 | 1,50 |
| Keramika, farfor (çini), sement, kərpic və oxşar istehsalat | 0,20 | 1,50 | 1,50 |
| Tikinti, quraşdırma və təmir işlərin aparılması | 0,90 | 2,25 | 1,2 |
| Meşə və kənd təsərrüfat istehsalatı | 0,30 | 1,25 | 0,75 |
| Sahibkarın (işə götürənin) məsuliyyəti | 0,65 | 0,50 | |
| Heyvanların saxlanılması | 0,90 | 1,50 | 1,0 |
| Digər tədbirlər və istehsalatlar | 0,25 | 2,0 | 1,7 |

Cədvəl 1-ə aid olan qeydlər:

1. Sığortaçının məsuliyyət həcmini, sığorta örtüyünün ərazisini və riskin dərəcəsinin müəyyən edilməsində əhəmiyyət daşıyan digər halları nəzərə alaraq, Sığortaçı müəyyən sığorta müqaviləsi bağladıqda təyin edilmiş tariflərə artırma və azaltma əmsallarını tətbiq etmək hüququna malikdir.
2. Bir ildən az müddətə müqavilə bağlandıqda sığorta mükafatı ümumi illik sığorta mükafatının cədvəl 2-də və yaxud cədvəl 4-də göstərilən əmsalı hasili kimi hesablanır.

Cədvəl 2

| Müqavilənin qüvvədə olma müddəti (aylarla) | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İllik mükafatdan faiz | 20 | 30 | 40 | 50 | 60 | 70 | 75 | 80 | 85 | 90 | 95 |

3. Sığorta müqaviləsinin qüvvədə olma müddəti zamanı tərəflərin razılığı ilə Sığortaçının məsuliyyət limiti artırılarsa, əlavə sığorta haqqı aşağıda göstərilən düstur ilə hesablanır:

ÑHəlav = (ÑM2 - ÑM1) *Ò/12, harada:

ÑM1, ÑM2 –əvvəlki və sonuncu məsuliyyət limitinə müvafiq olaraq illik sığorta mükafatı

Ò – sığorta müqaviləsinin başa çatmasına qalan tam ayların miqdarı .

4. Sığorta müqaviləsi vaxtından əvvəl ləğv edildikdə qaytarılan sığorta haqqının hissəsi miqdarı aşağıda göstərilən düstur ilə hesablanır:

ÑHq = ÑM1 * (1 - Ê),

burada ÑHq –illik sığorta mükafatıdır;

Ê – sığorta mükafatının istifadə etməsi əmsalı (cədvəl 3 ilə hesablanır)

Cədvəl 3

| Müqavilənin qüvvədə olma müddəti (aylarla) | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ê əmsalı | 0,2 | 0,35 | 0,5 | 0,6 | 0,65 | 0,7 | 0,75 | 0,8 | 0,85 | 0,9 | 0,95 | 1,0 |

Cədvəl 1 ilə əhatə olunmayan və yaxud riskin baş vermə ehtimalına təsir edən amillərin bu cədvəldə nəzərdə tutulanlardan fərqli olduğu hallarda tarifin hesablanması aşağıdakı qaydada aparılır:

a) Konkret risk üzrə əldə olan statistika əsasında müəyyən edilmiş sığorta hadisəsinin baş vermə ehtimalı (q): 0,02;

b) Bir müqavilə üzrə orta sığorta məbləği ($S_{o.c.m}$): 80 mln. manat;

c) Bir müqavilə üzrə orta sığorta ödənişi ($S_{o.c.ö}$): 40 mln. manat;

d) Bağlanılacaq müqavilələrin sayı (n): 40.

Tarif dərəcəsini B, netto-dərəcəni A, netto-dərəcənin əsas hissəsini $K_1$, risk üstəliyini isə $K_2$ ilə işarə edək. Onda

$$K_1 = \frac{100qS_{î.ñ.þ}}{S_{î.ñ.ì}} = \frac{100 \cdot 0,02 \cdot 40000000}{80000000} = 1 \text{ manat.}$$

Risk üstəliyini hesablamaq üçün 1,3 əmsalından istifadə edəcəyik. Bu o deməkdir ki, yığılmış sığorta mükafatları 0,9 ehtimalı ilə sığorta ödənişlərinin verilməsinə kifayət edir. Beləliklə,

$$K_2 = 1,3 \cdot 1,2K_1 \cdot \sqrt{\frac{1-q}{nq}} = 1,2 \cdot 1,3 \cdot 1 \cdot \sqrt{\frac{1-0,02}{40 \cdot 0,02}} = 1,7 \text{ manat}$$

$$A = K_1 + K_2 = 1 + 1,7 = 2,7 \text{ manat}$$

Tarifin strukturu: netto-dərəcə - 75%, yüklənmə - 25%.

$$B = \frac{100À}{100-25} = \frac{100 \cdot 2,7}{75} = 3,6 \text{ manat.}$$

Sığorta riskinin dərəcəsinə təsir edən amillərdən, azadolmadan, əmlakın növündən və s. şərtlərdən asılı olaraq yuxarıda göstərilən tarif dərəcəsinə (0,01 - 0,9) azaldıcı və (1,01 - 10) artırıcı əmsallar tətbiq edilə bilər.

Sığorta müqaviləsi bir ildən az müddətə bağlandıqda və ya vaxtından qabaq qüvvədən düşdükdə haqq aşağıdakı cədvəl üzrə hesablanır:

Vaxtından qabaq xitam verilən və ya bir ildən az müddətli müqavilələr üzrə haqqın hesablanması cədvəli

| Sığorta müqaviləsinin qüvvədə olma müddəti (gün) | İllik haqqın faizi |
|---|---|
| 1 | 5 |
| 2 | 6 |
| 3-4 | 7 |
| 5-6 | 8 |
| 7-8 | 9 |
| 9-10 | 10 |
| 11-12 | 11 |
| 13-14 | 12 |
| 15-16 | 13 |
| 17-18 | 14 |
| 19-20 | 15 |
| 21-22 | 16 |
| 23-25 | 17 |
| 26-29 | 18 |
| 30-32 | 19 |
| 33-36 | 20 |
| 37-40 | 21 |
| 41-43 | 22 |
| 44-47 | 23 |
| 48-51 | 24 |
| 52-54 | 25 |
| 55-58 | 26 |
| 59-62 | 27 |
| 63-65 | 28 |
| 66-69 | 29 |
| 70-73 | 30 |
| 74-76 | 31 |
| 77-80 | 32 |
| 81-83 | 33 |
| 84-87 | 34 |
| 88-91 | 35 |
| 92-94 | 36 |
| 95-98 | 37 |
| 99-102 | 38 |
| 103-105 | 39 |
| 106-109 | 40 |
| 110-113 | 41 |
| 114-116 | 42 |
| 117-120 | 43 |
| 121-124 | 44 |
| 125-127 | 45 |
| 128-131 | 46 |
| 132-135 | 47 |
| 136-138 | 48 |
| 139-142 | 49 |
| 143-145 | 50 |
| 147-149 | 51 |
| 150-153 | 52 |
| 154-156 | 53 |
| 157-160 | 54 |
| 161-164 | 55 |
| 165-167 | 56 |
| 168-171 | 57 |
| 172-175 | 58 |
| 176-178 | 59 |
| 179-182 | 60 |
| 183-187 | 61 |
| 188-191 | 62 |
| 192-196 | 63 |
| 197-200 | 64 |
| 201-205 | 65 |
| 206-209 | 66 |
| 210-214 | 67 |
| 215-218 | 68 |
| 219-223 | 69 |
| 224-228 | 70 |
| 229-232 | 71 |
| 233-237 | 72 |
| 238-241 | 73 |
| 242-246 | 74 |
| 247-250 | 75 |
| 251-255 | 76 |
| 256-260 | 77 |
| 261-264 | 78 |
| 265-269 | 79 |
| 270-273 | 80 |
| 274-278 | 81 |
| 279-282 | 82 |
| 283-287 | 83 |
| 288-291 | 84 |
| 292-296 | 85 |
| 297-301 | 86 |
| 302-305 | 87 |
| 306-310 | 88 |
| 311-314 | 89 |
| 315-319 | 90 |
| 320-323 | 91 |
| 324-328 | 92 |
| 329-332 | 93 |
| 333-337 | 94 |
| 338-342 | 95 |
| 343-346 | 96 |
| 347-351 | 97 |
| 352-355 | 98 |
| 356-360 | 99 |
| 361-365 | 100 |

RBAYCAN RESPUBLİKASININ MALİ

SIĞORTA NƏZARƏTİ

QAYDALAR ÜÇÜN

[redacted]

[redacted]